

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 iyul 2026-cı il №50 (3052) https://mod.gov.az Qiyməti 30 qəpik


***İsti yay günlərində də qalib ordumuzun rəşadətli əsgərləri təlim-məşqlərdən qalmırlar. Təsdiq olunmuş plana uğun olaraq keçirilən təlimlərdə onlar döyüş vərdişlərini artırır, yüksək döyüş qabiliyyətli əsgərlər olmağı qarşılarına məqsəd qoyurlar. Ona görə də yayın istisində, qışın sazağında, hava şəraitindən və ərazidən asılı olmayaraq keçirilən təlim-dərslərdə səylə iştirak edirlər.***

*Təlim*

## Təlimlər hərbi əməliyyatların müvəffəqiyyətlə bitməsinə xidmət edir



Azərbaycan Ordusunda diqqət mərkəzində saxlanılan mühüm məsələlərdən biri də şəxsi heyətin döyüş vərdişlərinin artırılmasıdır. Müntəzəm olaraq keçirilən təlimlərin, məşğələlərin məqsədi də məhz hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin, eləcə də mənəvi-psixoloji hazırlıqlarının daha da yüksəldilməsidir. Azərbaycan Ordusunda keçirilən hər bir təlimin, təlimdə tökülən tərin uğurlu nəticəsi 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbədə öz əksini tapdı. Döyüş meydanında hərbi qulluqçularımızın ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi, onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikalarından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərdi.

İkinci Qarabağ müharibəsində qazanılan şanlı Zəfərdən sonra əldə edilən təcrübələr nəzərə alınmaqla döyüş hazırlığının daha da artırılması istiqamətində təlim məşğələlər intensivləşdi. Ordu quruculuğunda yeni islahatlar həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun qardaş Türkiyənin ordu modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər görüldü. Bu istiqamətdə həyata keçirilən uğurlu islahatlardan biri də yeni komando əməliyyat hərbi hissələrinin yaradılması oldu. Müzəffər Ali Baş Komandanın belə hərbi hissələrdən birinin açılışı zamanı qeyd etdiyi "Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir" fikri bu gün öz təsdiqini tapıb. Xüsusi kurslardan keçən, çətin relyefli ərazilərdə - dağlarda, meşələrdə döyüşmə, eləcə də yaşayış məntəqələrində terrorçu qruplaşmalara qarşı döyüş bacarıqlarına yiyələnən komandolar artıq ordumuzun ayrılmaz hissəsidir.

Komando hərbi hissələrindən birində şəxsi heyətin taktiki dərsini izlədik. Şəxsi heyət döyüş şəraitinə maksimum uyğunlaşdırılan xüsusi taktiki-təlim zolaqlarında tapşırıqları icra edirdilər. Həmin zolaqlarda döyüşün müdafiə və hücum növlərinə uyğun olaraq manеələrin və şərti düşmən hədəflərinin olduğunu görürük.

Məşğələ başa çatdıqdan sonra heyətlə görüşüb həmsöhbət olduq. Məşğələ rəhbəri uzun illərdir ordu sıralarında xidmət edən və döyüş yolu keçən hərbi qulluqçudur. Ucaboy, idmançı görkəmli bu igid ciddi, təmkinli və hazırcavabdır. Onun keçdiyi məşğələdən və döyüş yolundan açdığı söhbətlər maraqlı idi.

**(Ardı 2-ci səhifədə)**

## ANAMA: Ötən həftə 212 mina və 753 partlamamış digər hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyulun 20-26-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 173, tank əleyhinə 39 mina və 753 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1740,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Xüsusi təyinatlılar: ABŞ, Türkiyə, Pakistan və Azərbaycanın təcrübəsi



Müasir hərb sənətində döyüşün nəticəsini müəyyən edən amillər əvvəlki onilliklərlə müqayisədə əhəmiyyətli dərəcədə dəyişib. Əgər keçmişdə qələbə əsasən canlı qüvvənin sayı, ağır zirehli texnika və artilleriya üstünlüyü ilə əlaqələndirilirdisə, bu gün əməliyyatların uğuru daha çox çevik idarəetmə, dəqiq kəşfiyyat və yüksək hazırlıqlı xüsusi təyinatlı bölmələrin fəaliyyətindən asılıdır. Müasir silahlı münaqişələr göstərir ki, strateji əhəmiyyət daşıyan tapşırıqların böyük hissəsi artıq kiçik, lakin peşəkar hazırlığa malik bölmələr tərəfindən icra olunur. Xüsusi təyinatlı qüvvələr ən mürəkkəb döyüş tapşırıqlarını yerinə yetirmək üçün formalaşdırılmış hərbi birləşmələrdir. Onların əsas vəzifələrinə xüsusi kəşfiyyatın aparılması, terrorçuluğa qarşı əməliyyatların icrası, strateji obyektlərin nəzarətə götürülməsi, girovların azad edilməsi, düşmən arxasında fəaliyyət, yüksək riskli hədəflərin zərərsizləşdirilməsi və digər qoşun növlərinin irəliləyişinə şərait yaradılması daxildir. Bu tapşırıqların yerinə yetirilməsi fiziki hazırlıqla yanaşı, yüksək peşəkarlıq, psixoloji dayanıqlıq, dəqiq koordinasiya və müstəqil qərarvermə bacarığı tələb edir.

Son 30 ildə baş vermiş silahlı münaqişələr xüsusi təyinatlı qüvvələrin rolunun daha da artdığını nümayiş etdirib. Əfqanıstan və İraqda terrorçuluğa qarşı həyata keçirilən əməliyyatlar, Türkiyənin Suriya və İraq istiqamətində apardığı antiterror tədbirləri, Pakistanın silahlı ekstremist qruplara qarşı mübarizə təcrübəsi, eləcə də Azərbaycanın 44 günlük Vətən müharibəsində tətbiq etdiyi müasir əməliyyat konsepsiyası göstərdi ki, xüsusi təyinatlı bölmələr artıq təkcə yardımçı qüvvə deyil, bir çox hallarda əməliyyatın gedişinə birbaşa təsir göstərən əsas döyüş komponentidir.

**(Ardı 3-cü səhifədə)**

## Görünməyən “düşmən”: minanın qədim tarixi

Müharibələr tarix boyu sadəcə meydanlarda, üz-üzə toqquşmalarla yadda qalmayıb. İnsan zəkası qarşı tərəfin hərəkətini məhdudlaşdırmaq, müdafiəni gücləndirmək və hücumu ləngitmək üçün müxtəlif üsullar axtarıb. Bu üsulların ən qədimlərindən biri torpağın altında gizlədilən maneələrdir. İlk dövrlərdə sadə taxta dirəklərdən və itiuclu tələlərdən ibarət olan bu vasitələr zaman keçdikcə inkişaf edərək müasir minaların yaranmasına gətirib çıxarıb. Döyüş meydanlarının səssiz silahı hesab olunan minalar bu gün də dünyanın ən ciddi humanitar problemlərindən biri olaraq qalır.

Tarixçilərin fikrincə, yaşayış məntəqələrinin və hərbi istehkamların müdafiəsi üçün torpaqda gizlədilən maneələrin istifadə olunmasının tarixi qədim dövrlərə gedib çıxır. Roma İmperiyasının hərbi mühəndisləri qalaların ətrafını müxtəlif tələlərlə əhatə edirdilər. Bunların arasında uclarına metal qarmaqlar bərkidilmiş qısa taxta dirəklər, itiuclu kötüklərlə doldurulan çuxurlar, eləcə də budaqları çölə istiqamətləndirilmiş ağac maneələri vardı. Məqsəd düşmənin sürətli irəliləyişini dayandırmaq, canlı qüvvəyə itki vermək və hücumu ləngitmək idi. Həmin qurğular partlayıcı maddələrdən istifadə etməsə də, mahiyyət etibarilə sonralar yaranacaq minaların ilk nümunələri hesab olunur. Onlar da yalnız təmas qurulduqda təsir göstərirdi. Amma barıtın kəşfi hərb tarixində yeni mərhələ açdı. Barıt təkcə odlu silahların yox, həm də yeraltı partlayıcı vasitələrin də inkişafına təkan verdi. Tarixçilər barıtla işləyən ilk mina qurğularının vətəni kimi Qədim Çini göstərirlər.




**(Ardı 4-cü səhifədə)**

## Əsrlərdən gələn əks-səda: Şirvanşahlar irsi

VIII əsrin sonlarından etibarən Şirvan torpaqlarında ərəb xəlifəliyindən nisbi müstəqillik qazanmağa başlayan bir hakim nəsil yetişdi və həmin sülalə beş əsrdən çox davam edən Şirvanşahlar dövlətinin bünövrəsini qoydu. Bu diyar ticarət yollarının qovşağı, dəniz limanlarının giriş qapısı və strateji dağ keçidlərinin qoruyucusu idi. Yerli hakimlər “şah” titulunu qəbul etməklə kifayətlənməyib “şirvanşah” adını özlərinə etnik-geosiyasi kimlik kimi seçdilər; bu, onların həm fars ənənəsindən, həm də türk boyunun hərbi gücündən bəhrələnən sintez hakimiyyət qurduğunun göstəricisi idi.

**(Ardı 6-cı səhifədə)**



(Əvvəli 1-ci səhifədə)

# Təlimlər hərbi əməliyyatların müvəffəqiyyətlə bitməsinə xidmət edir



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cavidan Səlimov 15 ilə yaxındır ki, ordu sıralarında xidmət edir. Tabeliyində olanlara taktiki, atəş, fiziki, kəşfiyyat və başqa hazırlıqlar üzrə təcrübələrini aşılayır. O deyir ki, komandir hərbi bilikləri nəzəri və praktiki olaraq ilk öncə özü dərindən bilməlidir ki, şəxsi heyətə də səmərəli dərs keçə bilsin.

Cavidan həm də İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Hərbi xidmətə başladığı ilk gündən onun məqsədi, məramı bacarıqlı hərbçi kimi formalaşaraq, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmək olub. Tale elə gətirib ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev orduya əks-hücum əmri verəndə Cavidan hərbi xidmətdə olub. 30 ilə yaxın işğalda olan torpaqlarımızın azad edilməsi üçün verilən bu əmr hər bir əsgərin çoxdan gözlədiyi əmr idi. Cavidan həmin günləri belə xatırlayır: “Müddətli həqiqi hərbi xidmət illərimi də hesablasam, on ilə yaxın idi ki, ordu sıralarında xidmət edirdim. Kifayət qədər hərbi bilik və bacarıqlara yiyələnmişdim. Döyüş meydanına atılmağa özümü hazır hesab edirdim. Mənimlə xidmət edən digər silahdaşlarım da yüksək döyüş bacarıqlarına malik idi. Əmin idim ki, müharibə başlasa, mütləq qalib gələcəyik. Mütəmadi keçdiyimiz təlim-məşqlər və silahdaşlarımın yüksək döyüş ruhu belə deməyə əsas verirdi. Döyüş yolum müxtəlif istiqamətlərdən keçib. İştirak etdiyim əməliyyatlarda silahdaşlarımla birlikdə verilən tapşırıqları uğurla yerinə yetirmişik”.

Çavuş Cavidan Nadir oğlu Səlimovun sinəsini “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” və başqa medallar bəzəyir. Onun görkəmi də, davranışı da hərbçiyə, döyüşçüyə xasdır. Təlim sahəsində tabeliyində olanlara dərs keçir, həm də öz fərdi hazırlığını daha da artırırdı.



Qeyd edim ki, ordumuzun bütün qoşun növlərində və bölmələrində nəzəri və praktiki dərslərin, taktiki və döyüş atışlı təlimlərin yüksək səviyyədə keçirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. Təlim meydanlarında döyüş vərdişlərini möhkəmlədən şəxsi heyət 44 günlük Vətən müharibəsində və sonrakı əməliyyatlarda tarixi Zəfərlər qazandı. Döyüş meydanında bacarıq, fədakarlıq, rəşadət göstərən hərbçilərimiz düşmən ordusunu darmadağın etdi. Müharibədən sonrakı dövürdə də ordumuzun döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması diqqət mərkəzində saxlanılır. Şəxsi heyət yerli təlimlərlə yanaşı, qardaş Türkiyə və digər xarici ölkələrin orduları ilə birgə təlimlərə cəlb olunur, ordumuzun müdafiə qüdrətinin daha da artırılması istiqamətində uğurlu addımlar atılır. Aparılan islahatlarla yanaşı, şəxsi heyətin yüksək döyüş ruhu, Vətən sevgisi, hərb peşəsinə sonsuz bağlılığı, dövlət və dövlətçiliyimizə sədaqəti də ordumuzun yenilməzliyini təmin edir. Onların keçirilən təlimdərslərə həvəslə yanaşması, nəzəri biliklərə və döyüş vərdişlərinə yiyələnmək üçün səylə çalışmaları da döyüş hazırlığında yüksək nəticələrin əldə olunmasında da mühüm rol oynayır.

Komandaları ən kiçik elementinə qədər dəqiqliklə yerinə yetirməyə can atan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Rizvan Quluzadə, Əfqan Qasımov, Talıb Məmmədov, Rüfət Səlimov, Nursaid Abdullazadənin də düşüncələrini öyrəndim. Dərs zamanı hər biri bacarıq, çeviklik və yüksək fiziki hazırlıq nümayiş etdirirdi. Yüksək döyüş hazırlığına və hərbi nizam-intizama malik olduqları hər addımlarından görünürdü. Rizvan Quluzadə dedi ki, hər bir hərbçi ona təhkim olunan silahının xüsusiyyətlərini öyrəndiyi kimi, hücum və ya müdafiə döyüşü zamanı taktiki biliklərə də mükəmməl yiyələnməlidir. Həmçinin bildirir ki, dağlıq, meşəlik, düzənlik, dərə-təpə və digər ərazilərdə döyüşməyin, müdafiə olunmağın incəliklərini mənimsəməlidir.

Əfqan Qasımov 2023-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarındadır. İkinci Qarabağ müharibəsindən əvvəl müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi düşmənlə təmas xəttində xidmət edib. O zaman da əsgərlərin təlim-məşqlərinə ciddi önəm verdiyini xatırladı. Keçirilən belə təlimlərin mahiyyətini yaxşı dərk etdiklərini bildirdi. “Biz hər gün döyüş vərdişlərimizi, hərbi biliklərimizi artırırıq ki, istənilən hərbi əməliyyatı uğurla yerinə yetirməyə hər an hazır olaq. Şərəfli peşə sahibi olmaqdan və qalib ordunun sıralarında xidmət etməkdən qürurluyuq”, - dedi Əfqan.

Əfqan, silahdaşları Rizvan Quluzadə və Talıb Məmmədov Azərbaycan Ordusunun daha bir zəfəri ilə başa çatan antiterror əməliyyatının iştirakçısı olublar. Onlar danışdıqca həmin hadisələri xatırlayıram. Vətən müharibəsində ağır məğlubiyyətə uğramasına baxmayaraq, Ermənistan Azərbaycana qarşı hərbi təxribatlarını davam etdirirdi. Bunun qarşını almaq üçün 2023-cü il sentyabrın 19-20-də hərb tariximizin daha bir parlaq səhifəsini təşkil edən uğurlu antiterror əməliyyatı həyata keçirildi. Ordumuz bu dəfə də yüksək peşəkarlıq və qətiyyət nümayiş etdirərək 24 saata yaxın davam edən antiterror əməliyyatı ilə Qarabağda qanunsuz silahlı birləşmələrin, terrorçuların və separatçı rejimin mövcudluğuna son qoydu. Beləliklə, Ali Baş Komandanın uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. Hərbçilərimizin peşəkarlığı və təlimlərdə qazanılan yüksək döyüş qabiliyyəti daha bir döyüş əməliyyatının uğurla nəticələnməsinə səbəb oldu. Qazanılan qələbələrimizin bu gün olduğu kimi yüksək səviyyədə təşkil edilən nəzəri və praktiki dərslərin, təlimlərin nəticəsi olduğu heç kimə sirr deyil. Hazırda keçirilən taktiki hazırlıq dərsi də ordumuzun müdafiə qüdrətinin, şəxsi heyətin döyüş qabiliyyətinin daha da yüksəlməsinə və gələcəkdə yerinə yetiriləcək istənilən hərbi əməliyyatın müvəffəqiyyətlə bitməsinə xidmət edir.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**



# “Sürücünün fəaliyyəti yalnız avtomobili idarə etməklə məhdudlaşmır”

Hərbi xidmətdə qarşıya qoyulan tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsi hər bir hərbi qulluqçudan yüksək məsuliyyət, intizam və peşəkarlıq tələb edir. Bu baxımdan hərbi nəqliyyat vasitələrinin etibarlı idarə olunması, onların daim saz vəziyyətdə saxlanılması və təyinatı üzrə istifadəyə hazır olması xidmətin mühüm istiqamətlərindən biridir.

Bu vəzifəni gündəlik xidməti fəaliyyətində məsuliyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rəsul Famil oğlu Kərimlidir. 2023-cü ilin 19-20 sentyabrında keçirilən antiterror əməliyyatının iştirakçısı olan Rəsul Kərimli 2022-ci ildən sürücülük fəaliyyəti ilə məşğuldur. Hərbi xidməti dövründə ona həvalə olunan vəzifələri məsuliyyətlə yerinə yetirməyə çalışıb, hərbi nəqliyyat vasitələrinin düzgün istismarı və təhlükəsiz idarə olunmasına xüsusi diqqət yetirib. Antiterror əməliyyatı zamanı hərbi sürücü kimi icra etdiyi vəzifələr çərçivəsində təminatın vaxtında çatdırılması üzrə tapşırıqların yerinə yetirilməsində iştirak edib. Hazırda da xidmətini eyni məsuliyyət və dəqiqliklə davam etdirir.

Hərbi sürücünün fəaliyyəti yalnız avtomobili idarə etməklə məhdudlaşmır. Nəqliyyat vasitəsinin texniki vəziyyətinə daim nəzarət olunması, gündəlik baxışların aparılması, mümkün nasazlıqların vaxtında aşkarlanması və aradan qaldırılması xidmətin ayrılmaz tərkib hissəsidir. Bu baxımdan sürücünün texniki biliklərə malik olması mühüm əhəmiyyət daşıyır.

Söhbət zamanı hərbi qulluqçu Rəsul Kərimli qeyd etdi ki, mülki həyatda avtomobil ustası kimi çalışması bu sahədə qazandığı bilik və təcrübəni daha da artırıb. Avtomobillərin quruluşunu



yaxşı bilməsi ona xidmətdə istifadə etdiyi hərbi nəqliyyat vasitələrinin texniki vəziyyətini diqqətlə izləməyə və onların saz vəziyyətdə saxlanılmasına məsuliyyətlə yanaşmağa kömək edir.

İdmana olan marağı da onun həyatının ayrılmaz hissəsidir. Mülki həyatda uzun müddət güləş idman növü ilə məşğul olan Rəsul Kərimli Bakı şəhəri üzrə keçirilən yarışlarda üçüncü yerə layiq görülüb. Onun sözlərinə görə, idmanla məşğul olmaq insanda dözümlülük, iradə, hərbi intizam və çevik qərarvermə kimi keyfiyyətlərin formalaşmasına kömək edir ki, bu xüsusiyyətlər hərbi xidmətdə də öz əhəmiyyətini qoruyur.

Sürücü Rəsul Kərimli hesab edir ki, hərbi sürücünün əsas vəzifələrindən biri ona etibar olunan texnikaya məsuliyyətlə yanaşmaqdır.

"Hərbi nəqliyyat vasitəsinin saz vəziyyətdə saxlanılması sürücünün gündəlik vəzifələrindən biridir. Hər yürüşdən əvvəl texniki baxışın aparılması, nasazlıqların vaxtında aradan qaldırılması və avtomobilə düzgün qulluq göstərilməsi həm təhlükəsizliyin təmin olunmasına, həm də verilən tapşırıqların vaxtında icrasına xidmət edir. Mən çalışıram ki, mənə həvalə olunan texnika hər zaman istismara tam hazır vəziyyətdə olsun və üzərimə düşən vəzifələri vicdanla yerinə yetirim", - əsgər Kərimli bildirdi.

Hərbi xidmətdə əldə olunan nəticələr hər bir hərbi qulluqçunun öz vəzifəsinə məsuliyyətlə yanaşmasından, kollektiv fəaliyyətə verdiyi töhfədən və hərbi intizama əməl etməsindən asılıdır. Tutduğu vəzifədən asılı olmayaraq hər bir şəxsi heyət üzvünün peşəkar fəaliyyəti ordunun ümumi fəaliyyətinin vacib hissəsini təşkil edir.

Azərbaycan Ordusunun gücü hər bir hərbi qulluqçunun öz vəzifəsinə məsuliyyətlə yanaşması, hərbi anda sadiqliyi və peşəkarlığı ilə daha da möhkəmlənir. Şəxsi heyətə şərəfli xidmətlərində uğurlar, möhkəm cansağlığı və Vətən qarşısındakı məsuliyyətli fəaliyyətlərində müvəffəqiyyətlər arzulayırıq.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

# Xüsusi təyinatlılar: ABŞ, Türkiyə, Pakistan və Azərbaycanın təcrübəsi



(Əvvəli 1-ci səhifədə)

Məhz buna görə dünyanın aparıcı ordularında xüsusi təyinatlı qüvvələrin inkişafı prioritet istiqamətlərdən biri hesab olunur. Yeni nəsil silah sistemlərinin tətbiqi, pilotsuz uçuş aparatlarından əldə olunan kəşfiyyat məlumatlarının operativ emalı, rəqəmsal rabitə vasitələrinin inkişafı və müxtəlif qoşun növləri arasında koordinasiyanın təkmilləşdirilməsi xüsusi əməliyyatların planlaşdırılması və icrasına da ciddi təsir göstərib. Müasir xüsusi təyinatlı döyüşçü artıq yalnız yüksək fiziki hazırlığa malik hərbçi deyil, eyni zamanda, mürəkkəb texnologiyalarla işləməyi bacaran, qısa müddətdə vəziyyəti qiymətləndirərək düzgün qərar qəbul edən yüksək intellektə malik peşəkar mütəxəssisdir. Bununla yanaşı, hər bir ölkənin xüsusi təyinatlı qüvvələrinin hazırlıq sistemi milli təhlükəsizlik mühiti və qarşılaşdığı təhdidlər nəzərə alınmaqla formalaşdırılır. Qlobal miqyasda fəaliyyət göstərən dövlətlər uzaqmənzilli xüsusi əməliyyatlara üstünlük verdiyi halda, terrorçuluq təhlükəsinin yüksək olduğu regionlarda yerləşən ölkələr dağlıq ərazilərdə döyüş, sərhəd təhlükəsizliyi və antiterror əməliyyatlarına daha çox diqqət yetirirlər. Bu fərqlərə baxmayaraq, bütün xüsusi təyinatlı məktəbləri birləşdirən ortaq prinsip dəyişməz qalır: döyüş meydanında uğur yalnız uzunmüddətli hazırlıq, ciddi seçim sistemi və real döyüş təcrübəsinin vəhdəti nəticəsində əldə edilir.

Bu baxımdan ABŞ, Türkiyə, Pakistan və Azərbaycanın xüsusi təyinatlı qüvvələri müxtəlif coğrafi və əməliyyat şəraitində formalaşsalar da, onların hazırlıq sistemlərinin əsas məqsədi eynidir - ən mürəkkəb şəraitdə belə tapşırığı dəqiq, çevik və minimum itki ilə yerinə yetirə bilən peşəkar döyüşçü hazırlamaq. Məhz buna görə son illərdə bu ölkələrin xüsusi təyinatlı bölmələrinin real əməliyyat təcrübəsi, hazırlıq metodikası və beynəlxalq təlimlərdə əldə etdikləri nəticələr hərbi ekspertlərin diqqət mərkəzindədir. Müasir xüsusi təyinatlı qüvvələrin hazırlıq sistemini qiymətləndirərkən əsas meyar onların real döyüş şəraitində əldə etdikləri təcrübə hesab olunur. Çünki ən mükəmməl təlim proqramı belə insan amili nəzərə alınmadıqda və döyüş meydanında sınaqdan keçirilmədikcə öz effektivliyini tam sübut edə bilmir. Bu səbəbdən dünyanın aparıcı orduları hər bir əməliyyatdan sonra əldə olunan nəticələri təhlil edir, aşkar olunan çatışmazlıqları aradan qaldırır və hazırlıq proqramlarını müasir təhlükələrə uyğun şəkildə yeniləyirlər.

Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Qüvvələr Komandanlığı son illərdə həyata keçirilən antiterror əməliyyatları zamanı mühüm döyüş təcrübəsi qazanıb. 2016-cı ildə Suriyanın şimalında keçirilən "Fərat Qalxanı" əməliyyatı zamanı xüsusi təyinatlı bölmələr yaşayış məntəqələrinin terrorçu qruplaşmalardan təmizlənməsi, xüsusi kəşfiyyatın aparılması və digər bölmələrin irəliləməsinin təmin edilməsi kimi tapşırıqları yerinə yetirdilər. 2018-ci ildə həyata keçirilən "Zeytun Budağı" əməliyyatı şəhər və dağlıq ərazilərdə aparılan antiterror fəaliyyətinin yeni mərhələsini formalaşdırdı. Daha sonra "Barış Pınarı" əməliyyatı və İraqın şimalında uzun müddət davam etdirilən "Pəncə" silsilə əməliyyatları göstərdi ki, xüsusi təyinatlı bölmələrin uğuru pilotsuz uçuş aparatlarından alınan kəşfiyyat məlumatlarının operativ istifadəsi, dəqiq koordinasiya və kiçik taktiki qrupların çevik fəaliyyəti ilə birbaşa bağlıdır. Məhz bu əməliyyatlardan sonra Türkiyə xüsusi təyinatlılarının hazırlıq proqramlarında pilotsuz sistemlərlə qarşılıqlı fəaliyyət, gecə döyüşü və dağ şəraitində xüsusi əməliyyat elementlərinə daha geniş yer ayrılmağa başlandı.

ABŞ Silahlı Qüvvələrinin xüsusi əməliyyat qüvvələri isə XXI əsrdə keçirilən antiterror əməliyyatlarının inkişafında mühüm rol oynayıb. Əfqanıstanda həyata keçirilən "Anakonda" əməliyyatı mürəkkəb dağlıq relyefdə xüsusi təyinatlıların fəaliyyətinin planlaşdırılması baxımından əhəmiyyətli təcrübə qazandırdı. 2005-ci ildə həyata keçirilən "Qırmızı Qanadlar" əməliyyatı xüsusi əməliyyatlar zamanı kəşfiyyat, rabitə və qarşılıqlı fəaliyyətin əhəmiyyətini bir daha nümayiş etdirdi. 2011-ci ildə Pakistanda keçirilən "Neptun Nizəsi" əməliyyatı isə uzunmüddətli planlaşdırma, yüksək məxfilik, dəqiq koordinasiya və peşəkar hazırlığın uğurlu xüsusi əməliyyatın əsas şərtləri olduğunu göstərdi. Bu əməliyyatlardan əldə olunan nəticələr ABŞ xüsusi əməliyyat qüvvələrinin hazırlığında şəhər döyüşü, gecə əməliyyatları, pilotsuz sistemlərin tətbiqi və müxtəlif qoşun növlərinin inteqrasiya olunmuş fəaliyyəti istiqamətlərinin daha da inkişaf etdirilməsinə səbəb oldu.



Pakistan Ordusunun Xüsusi Xidmət Qrupu uzun illər terrorçuluğa qarşı aparılan əməliyyatlar nəticəsində özünəməxsus hazırlıq məktəbi formalaşdırıb. 2009-cu ildə keçirilən "Rah-e-Nicat" və 2014-cü ildə başladılan "Zərb-e-Əzb" antiterror əməliyyatları zamanı xüsusi təyinatlı bölmələr dağlıq və çətin keçilən ərazilərdə silahlı qruplaşmalara qarşı fəaliyyət göstərərək mühüm təcrübə qazandılar. Bu əməliyyatlar Pakistan xüsusi təyinatlılarının hazırlığında uzunməsafəli dağ yürüşləri, gecə əməliyyatları, xüsusi kəşfiyyat, paraşüt hazırlığı və məhdud təminat şəraitində sağqalma bacarıqlarının daha da təkmilləşdirilməsinə təkan verdi. Hazırlığın əsas məqsədi uzun müddət müstəqil fəaliyyət göstərə bilən, çətin relyefdə tapşırıqları yerinə yetirməyə qadir peşəkar döyüşçülərin hazırlanması idi. Müxtəlif ölkələrin döyüş təcrübəsi göstərir ki, xüsusi təyinatlı qüvvələrin uğuru təsadüfi deyil. Hər bir uğurlu əməliyyatın arxasında illərlə davam edən hazırlıq prosesi, ciddi seçim sistemi, müasir texnologiyaların tətbiqi və real əməliyyatlardan çıxarılan dərslərin hazırlıq proqramlarına inteqrasiyası dayanır. Məhz buna görə müasir ordular xüsusi təyinatlı bölmələrin döyüş hazırlığını statik deyil, daim inkişaf edən və dəyişən proses kimi qiymətləndirirlər. Bu yanaşma Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hazırlıq sistemində də öz əksini tapır və son illərdə keçirilən ölkədaxili və beynəlxalq təlimlərin məzmununda aydın şəkildə müşahidə olunur. Xüsusi təyinatlı qüvvələrin peşəkarlığını müəyyən edən əsas amil onların malik olduqları silah və texnika deyil, formalaşdıqları hazırlıq sistemidir. Müasir hərbi doktrinalarda xüsusi əməliyyatların uğuru fiziki hazırlıq, psixoloji dayanıqlıq, taktiki düşüncə, müstəqil qərarvermə və bölmə daxilində qarşılıqlı fəaliyyətin vəhdəti kimi qiymətləndirilir. Bu səbəbdən ABŞ, Türkiyə, Pakistan və Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin hazırlıq proqramlarında müəyyən fərqlər olsa da, onların hamısını birləşdirən ortaq xüsusiyyət yüksək seçim meyarları və fasiləsiz təlim prosesidir.

ABŞ xüsusi əməliyyat qüvvələrinin hazırlıq konsepsiyası dünyanın müxtəlif regionlarında fəaliyyət göstərmək imkanına əsaslanır. Namizədlər ağır fiziki sınaqlarla yanaşı, psixoloji qiymətləndirmədən, xüsusi kəşfiyyat, paraşüt hazırlığı, SERE (Sağqalma, Yayınma, Müqavimət və Xilasolma) kursları, yaşayış məntəqələrində yaxın məsafəli döyüş və müxtəlif iqlim şəraitində uzunmüddətli fəaliyyət proqramlarından keçirlər. Məqsəd müstəqil qərar qəbul edə bilən, məhdud təminat şəraitində tapşırığı yerinə yetirməyi bacaran yüksək intellektual səviyyəyə malik, bir neçə xarici dil bilən peşəkar xüsusi əməliyyat döyüşçüsü hazırlamaqdır.

Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Qüvvələr Komandanlığında hazırlıq proqramı ölkənin təhlükəsizlik mühiti nəzərə alınmaqla qurulub. Dağ hazırlığı, qayaya dırmanma, helikopterlə yerdəyişmə və təxliyə, paraşüt hazırlığı, xüsusi kəşfiyyat, snayper hazırlığı və yaşayış məntəqələrində antiterror əməliyyatları təlimlərin əsas istiqamətlərini təşkil edir. Son illərdə Suriya və İraq istiqamətində həyata keçirilən antiterror əməliyyatlarından əldə olunan təcrübə nəticəsində pilotsuz uçuş aparatlarından alınan kəşfiyyat məlumatlarının xüsusi əməliyyatlarla inteqrasiyası, gecə döyüşü və kiçik taktiki qrupların fəaliyyəti hazırlıq proqramlarında daha geniş yer tutmağa başlayıb.



Pakistan Ordusunun Xüsusi Xidmət Qrupunun hazırlıq sistemi isə yüksək dağlıq ərazilərdə və mürəkkəb coğrafi şəraitdə fəaliyyət üzərində qurulub. Hazırlıq proqramına uzunməsafəli yürüşlər, paraşüt hazırlığı, dağ şəraitində xüsusi əməliyyatlar, gecə döyüşü, xüsusi kəşfiyyat və məhdud təminat şəraitində sağqalma elementləri daxildir. Uzun illər davam edən antiterror əməliyyatları Pakistan xüsusi təyinatlılarının dağ döyüşü və kiçik taktiki qrupların müstəqil fəaliyyəti sahəsində zəngin təcrübə formalaşdırmasına imkan verib.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hazırlıq sistemi də son illərdə müasir xüsusi əməliyyat konsepsiyasına uyğun şəkildə inkişaf etdirilib. Hazırlıq proqramlarında dağ hazırlığı, paraşüt hazırlığı, xüsusi kəşfiyyat, snayper hazırlığı, yaşayış məntəqələrində döyüş, gecə əməliyyatları, müxtəlif maneələrin dəf edilməsi və sağqalma kursları mühüm yer tutur. Xüsusi diqqət fiziki hazırlıqla yanaşı, psixoloji dayanıqlığın, liderlik keyfiyyətlərinin və bölmə daxilində qarşılıqlı fəaliyyət bacarıqlarının inkişafına yönəldilir. Namizədlərin seçim prosesi çoxmərhələli qiymətləndirmə əsasında aparılır və yalnız yüksək nəticə göstərən hərbi qulluqçular hazırlığın növbəti mərhələlərinə buraxılır. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hazırlıq sistemində ən çətin mərhələlərdən biri dünya ordularında "Cəhənnəm həftəsi" kimi tanınan seçim mərhələsidir. Bu mərhələnin məqsədi namizədin fiziki göstəricilərini yoxlamaqdan daha çox, uzunmüddətli gərginlik şəraitində onun iradəsini, psixoloji dayanıqlığını, kollektiv daxilində fəaliyyət qabiliyyətini və tapşırıqları təzyiq altında icra etmək bacarığını qiymətləndirməkdir. Belə sınaqlar xüsusi təyinatlı hazırlığının ayrılmaz hissəsi olmaqla yanaşı, gələcək döyüş şəraitində qarşılaşa biləcək mürəkkəb situasiyalara uyğunlaşmanın da əsasını təşkil edir. Xüsusi təyinatlıların peşəkar hazırlığında beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Türkiyə və Pakistan xüsusi təyinatlıları ilə keçirilən "Üç Qardaş", eləcə də "Sarsılmaz Qardaşlıq" beynəlxalq təlimləri müxtəlif döyüş məktəblərinin təcrübəsinin öyrənilməsi və qarşılıqlı fəaliyyət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Təlimlər zamanı xüsusi kəşfiyyat, hava-desant əməliyyatları, yaşayış məntəqələrində antiterror fəaliyyəti, pusqu və əkspusqu, snayper hazırlığı, dağ şəraitində döyüş və kiçik taktiki qrupların koordinasiyası üzrə müxtəlif ssenarilər məşq olunur. Bu cür təlimlər beynəlxalq təcrübənin mənimsənilməsinə və hazırlıq sisteminin davamlı təkmilləşdirilməsinə xidmət edir. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hazırlıq səviyyəsi 2020-ci il Vətən müharibəsi zamanı öz təsdiqini tapdı. Xüsusi təyinatlı bölmələr mürəkkəb dağlıq ərazilərdə aparılan əməliyyatlarda, əlverişsiz relyef şəraitində irəliləmənin təmin edilməsində və strateji əhəmiyyətli yüksəkliklərin azad edilərək nəzarətə götürülməsində iştirak ediblər. Xüsusilə Şuşanın azad olunması istiqamətində həyata keçirilən əməliyyatlar göstərdi ki, yüksək fiziki hazırlıq, dağ döyüşü üzrə peşəkarlıq, kiçik taktiki qrupların çevik fəaliyyəti və digər qoşun növləri ilə koordinasiya müasir döyüşün həlledici elementlərindəndir. Bu təcrübə Azərbaycan Ordusunda xüsusi təyinatlı hazırlığının gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində də mühüm rol oynadı. Müasir müharibələrin xarakteri dəyişdikcə xüsusi təyinatlı qüvvələrin üzərinə düşən vəzifələr də mürəkkəbləşir. Artıq onların fəaliyyəti yalnız xüsusi əməliyyatların icrası ilə məhdudlaşmır; kəşfiyyat məlumatlarının operativ emalı, pilotsuz sistemlərlə qarşılıqlı fəaliyyət, yüksək dəqiqlikli zərbələrin əlaqələndirilməsi və müxtəlif qoşun növlərinin vahid plan üzrə idarə olunması xüsusi əməliyyatların ayrılmaz hissəsinə çevrilib. Buna görə də xüsusi təyinatlı qüvvələrin hazırlığı bütün aparıcı ordularda davamlı şəkildə təkmilləşdirilir. Müasir döyüş meydanının reallıqları göstərir ki, yüksək hazırlıqlı xüsusi təyinatlı bölmələr gələcəkdə də orduların ən çevik, ən peşəkar və strateji əhəmiyyət daşıyan döyüş komponentlərindən biri olaraq qalacaq.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

***Vətənə xidmət hər zaman şərəfli və müqəddəs vəzifə hesab olunub. Bu müqəddəsliyin yükünü çiyinlərində daşıyanlar isə əsgər və zabitlərimizdir. Ordunu yenilməz edən tək müasir silahlar deyil, o silahı tutan əllərin peşəkarlığı, mayası vətənpərvərliklə yoğrulmuş mərd, cəsur Azərbaycan əsgərinin Vətən sevgisidir. Şah İsmayıl Xətainin bir deyimi var: “Qılınc həmin qılıncdır, qol həmin qol deyil”.***

*Nümunəvi xidmət*

# Bir əsgər hekayəsi



Vətənin keşiyində durmaq tək silah tutmaq deyil, zamanı gəldikdə o silahı göz qırpmadan düşmənə çevirməkdir. Hərbi qulluqçularımız torpaqlarımızın adsız qəhrəmanları, millətimizin baş tacıdırlar. Hər bir əsgər və zabit bir dastanın canlı mirasıdır. Bu gün belə əsgərlərimizdən biri ilə sizi tanış edəcəm.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sədrəddin Niyaməddin oğlu Əliyev 7 iyul 2004-cü ildə Masallı rayonunun İskəndərli kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra, hərbi xidmətə yola düşüb. Xidmət dövründə hərb sənətinə olan sevgisi onu ordu sıralarında qalıb xidmət etməyə sövq edib. Xidmət müddətində çalışqan, intizamlı hərbçi kimi diqqət çəkib. Verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirib. “Hər bir döyüşçünün hekayəsi təlim meydançasından başlayır”, - deyirlər. Yazımızın qəhrəmanı da xidmət etdiyi müddətdə keçirilən bütün təlimlərdə fərqlənərək özünü məsuliyyətli hərbçi kimi sübut edib. O, gecə-gündüz demədən yağışda, qarda, istidə iradəsini sınağa çəkib. Nizam-intizamı, fiziki dözümlülüyü, qətiyyəti ona təlimlərdə əla qiymət qazandırır. Reallığa yaxın şəraitdə keçirilən gərgin hərbi təlimlərdə əsgərimiz döyüş vərdişlərinə daha dərindən yiyələnir, əldə etdiyi nəzəri bilikləri döyüşün kritik anlarında tətbiq etmək bacarıqlarını təkmilləşdirir. Təlim meydanında hədəfi dəqiq vurmaq, real döyüş vəziyyətində qazanılacaq böyük zəfərlərin ilk addımıdır. Təlim atışlarında uğur qazanmağın təməlində silahı dərindən tanımaq, taktiki-texniki xüsusiyyətlərinə bələd olmaq, ondan peşəkarlıqla istifadə etmək bacarığı dayanır. Bizim əsgərin ən yaxın silahdaşı döyüşün taleyini dəyişə bilən pulemyotdur. Pulemyotçunun əsas vəzifəsi döyüş şəraitində pulemyot kimi ağır silahı məharətlə idarə edərək bölmələrin təhlükəsizliyini təmin etmək, uğurla irəliləməsinə şərait yaratmaq, düşməni dayandırmaq, taktiki qrupun təhlükəsiz hərəkətini təmin etməkdir. Sədrəddin pulemyotun taktiki-texniki xüsusiyyətlərini yaxşı öyrənib; silahın gücünü, güllənin başlanğıc sürətini, effektiv atəş məsafəsini bilir. Bu da ona resurslardan səmərəli istifadə etməkdə böyük köməkdir. Silahının çəkisini, fərqli mövqelərdə imkanlarını bildiyi üçün sığınacaqları düzgün seçir, pulemyotu tez bir zamanda döyüş vəziyyətinə gətirir, özünü çətin anlarda dəqiq atəşlə düşmənin dayaq məntəqəsini susduran bacarıqlı pulemyotçu kimi tanıdır. 2023-cü ilin sentyabrında başlayan, 24 saata yaxın davam edən antiterror əməliyyatı hərb tariximizin ən parlaq səhifələrindən biri, ölkəmizin suveren hüquqlarının tam bərpası, Azərbaycan Ordusunun yüksək peşəkarlığının, sarsılmaz döyüş ruhunun bütün dünyaya sübutu idi. Qarabağımızı terror aktları törədən qanunsuz erməni silahlı birləşmələrindən, eləcə də Ermənistan ordusunun qalıqlarından təmizləmək üçün vuruşan hər bir hərbi qulluqçu müasir tariximizin canlı qəhrəmanıdır. Antiterror əməliyyatı adi döyüşlərdən fərqlənirdi. Burada düşmən xain və gözlənilməz idi. Belə döyüşlərdə sadəcə cəsarət yetərli olmur, peşəkarlıq, sarsılmaz iradə və mənəvi dözüm, maksimum diqqət tələb olunur. Sədrəddin qatıldığı bu əməliyyatda komandirin əmrlərini dəqiq yerinə yetirir, sərrast atışlarla mürəkkəb dağlıq relyefdə düşmənin manevr imkanlarını məhdudlaşdırır, atəş nöqtələrini zərərsizləşdirir, ermənilərin illərlə qurduğu mühəndis-istehkam maneələrini yarmaqda bölmələrimizə dəstək verirdi. Təlimlərdə qazandığı təcrübə döyüş meydanındakı stresi idarə etməyə, ən çətin vəziyyətlərdə düzgün qərarlar verməyə, düşmənin təxribat qruplarının qarşısını almağa zəmin yaratmışdı. Döyüşün kritik anlarında atəş dəstəyini təmin etməklə manevr edən bölmələrimizə yol açırdı. Bu isə hərbi əməliyyatların qısa müddətdə və minimum itkilərlə başa çatmasında mühüm amil idi.

Təlimlərdəki parlaq uğurları, silahını mükəmməl bilməsi, antiterror əməliyyatında cəsarəti onu etibarlılıq rəmzinə çevirmişdir. Bu gün belə hərbi qulluqçularımızın fədakarlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmiş, suverenliyimiz bütün torpaqlarımızda təmin olunmuşdur. Nə qədər ki, ürəyi Vətən eşqi ilə döyünən, elinə-obasına sadiq əsgərlərimiz var, dövlətimizin gücü sarsılmazdır. Başın uca, qolun güclü olsun, Azərbaycan əsgəri!

**Sevinc QULİYEVA**
**“Azərbaycan Ordusu”**

# Görünməyən “düşmən”: minanın qədim tarixi

(Əvvəli 1-ci səhifədə)



XIII əsrdə Sun imperiyası monqol yürüşlərinə qarşı müdafiə zamanı yerüstü partlayıcı vasitələrdən istifadə edirdi. Həmin dövrün mənbələrində çuqundan hazırlanmış və barıtla doldurulmuş partlayıcı vasitələrdən bəhs edilir. Bu sistemlərin tətbiqi mürəkkəb idi və düşmənin hərəkət istiqamətinin əvvəlcədən düzgün hesablanmasını tələb edirdi. Buna baxmayaraq, həmin yenilik döyüş taktikasında mühüm dönüş nöqtəsi sayılırdı. Sonrakı əsrlərdə partlayıcı vasitələrin işə düşmə prinsipləri də dəyişməyə başladı. XVII əsrin əvvəllərində hazırlanan yeni mexanizmlər insanın hərəkətini avtomatik şəkildə hiss edərək partlayışı təmin edən sistemlərin meydana çıxmasına səbəb oldu. Bu dövr artıq mina texnologiyasının sadə tələlərdən daha mürəkkəb hərbi vasitələrə çevrildiyini göstərirdi. Hərbi mühəndislər insan müdaxiləsi olmadan işləyən sistemlər yaratmağa çalışır, beləliklə müdafiə xətlərinin effektivliyini artırırdılar. Avropada da bu istiqamətdə işlər davam etdirilirdi. 1573-cü ildə alman hərbi mühəndisi Samuel Zimmermann səthə yaxın yerləşdirilən mina növünü təqdim etdi. Bu vasitələr əsasən qalaların qarşısındakı müdafiə zolaqlarında tətbiq olunurdu. Lakin dövrün texniki imkanları onların geniş yayılmasına imkan vermirdi. İstifadə olunan mexanizmlər rütubətə və uzun müddət baxımsız qalmağa davamlı deyildi. Xüsusilə nəm hava şəraiti partlayıcı vasitələrin etibarlılığını əhəmiyyətli dərəcədə azaldırdı. Buna görə də həmin dövrdə minalar daha çox yardımçı müdafiə vasitəsi kimi qiymətləndirilirdi. Minaların hərbi əməliyyatlarda daha geniş tətbiqi XIX əsrdə Amerikada Vətəndaş müharibəsi zamanı müşahidə olundu. Müharibənin gedişində Konfederasiya ordusunun briqada generalı Qabriel Reins döyüş meydanlarında kütləvi şəkildə basdırılan partlayıcı vasitələrdən istifadə etdi. O dövrün sənədlərində bu vasitələr “torpedo” adı ilə qeyd olunur. Onların tətbiqi Birlik qoşunlarının irəliləməsini ləngitdi və ciddi itkilərə səbəb oldu. Məhz həmin müharibədən sonra dünyanın aparıcı orduları mina maneələrinin taktiki üstünlüklərini daha dərindən öyrənməyə başladılar. Sənaye inqilabı və texnologiyanın inkişafı XX əsrdə minaların daha geniş istehsalına şərait yaratdı. Birinci Dünya müharibəsində geniş səngər sistemlərinin qurulması ilə mina sahələri müdafiənin ayrılmaz hissəsinə çevrildi. İkinci Dünya müharibəsində isə minalar artıq yalnız canlı qüvvəyə qarşı deyil, zirehli texnikanın hərəkətini məhdudlaşdırmaq məqsədilə də geniş istifadə olunurdu. Döyüş meydanlarında yaradılan mina sahələri orduların irəliləyiş tempinə ciddi təsir göstərir, mühəndis bölmələrinin rolunu artırırdı. Soyuq müharibə illərində mina istehsalı daha da genişləndi. Dünyanın müxtəlif bölgələrində baş verən silahlı münaqişələr zamanı milyonlarla mina basdırıldı. Təəssüf ki, müharibələr başa çatdıqdan sonra onların böyük hissəsi torpaq altında qalaraq uzun illər təhlükə yaratmağa davam etdi. Məhz buna görə də XX əsrin sonlarından başlayaraq beynəlxalq təşkilatlar minaların humanitar nəticələrinə daha çox diqqət ayırmağa başladılar. Bu gün minaların ən böyük təhlükəsi onların müharibə bitdikdən sonra da insan həyatı üçün risk yaratmasıdır. Əkin sahələri, yaşayış məntəqələri, yollar, məktəblərin ətrafı və digər ərazilər uzun illər istifadəyə yararsız vəziyyətdə qala bilir. Minalar yalnız hərbçilərin deyil, mülki şəxslərin, xüsusilə uşaqların həyatı üçün ciddi təhlükə hesab olunur. Buna görə də dünyanın müxtəlif ölkələrində minatəmizləmə əməliyyatları uzunmüddətli və mürəkkəb proses kimi həyata keçirilir.



Qeyd etmək yerinə düşər ki, hazırda dünyanın ən çox minalarla çirklənən ölkələrindən biri Ukraynadır. Davam edən müharibə nəticəsində geniş ərazilərin partlayıcı sursatlarla çirkləndiyi bildirilir. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, təhlükəsizliyin tam təmin olunması üçün uzun illər sistemli minatəmizləmə işlərinin aparılması tələb olunacaq. Azərbaycan da mina təhlükəsini yaxından yaşayan ölkələr sırasındadır. Uzun illər işğal altında qalmış ərazilərimizdə basdırılmış minalar və digər partlayıcı sursatlar bu gün də insanların həyatına təhlükə yaradır. İşğaldan azad edilmiş torpaqların da genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi ilk növbədə minatəmizləmə prosesindən asılıdır. Bu istiqamətdə Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA), ordumuzun mühəndis-istehkam bölmələri və digər aidiyyəti qurumlar fasiləsiz fəaliyyət göstərirlər. Müasir texnologiyalar, xüsusi təlim keçmiş mütəxəssislər, mexanikləşdirilmiş vasitələr və xidməti itlər bu prosesin ayrılmaz hissəsinə çevrilib. Mina təhlükəsi yalnız hərbi məsələ deyil, həm də sosial, iqtisadi və humanitar problemdir. Təmizlənməmiş ərazilər kənd təsərrüfatının inkişafını, yeni yaşayış məntəqələrinin salınmasını, infrastruktur layihələrinin icrasını və məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışını ləngidir. Buna görə də beynəlxalq ictimaiyyət mina problemini müharibənin bitməsi ilə yekunlaşmayan, uzun illər davam edən nəticələrindən biri kimi qiymətləndirir. Əsrlər əvvəl sadə taxta tələlər kimi yaranan mina bu gün texnologiyanın inkişafı ilə daha mürəkkəb formaya düşsə də, onun mahiyyəti dəyişməyib. Məqsəd yenə də hərəkəti məhdudlaşdırmaq və qarşı tərəfə itki verməkdir. Lakin müasir dövrdə əsas prioritet artıq yeni mina sahələrinin yaradılması deyil, mövcud təhlükənin aradan qaldırılması, insanların həyatının qorunması və torpaqların yenidən təhlükəsiz həyata qaytarılmasıdır. Çünki müharibələr bir gün başa çatsa da, torpağın altında gizlənən təhlükə bəzən onilliklər boyu yaşamağa davam edir.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**

# Orta əsrlərdə müdafiə qalaları



***Qədim və orta əsrlərdə qalalar dövlətlərin təhlükəsizliyində mühüm rol oynayırdı. Hündür dağların zirvəsində, çətin keçilən qayalıqlarda və ya strateji əhəmiyyətə malik ərazilərdə tikilən bu istehkamlar təkcə yaşayış yeri deyil, həm də hərbi müdafiə mərkəzi idi. Düşmən üçün belə qalaları ələ keçirmək heç də asan olmurdu. Bəzən bir qalanın mühasirəsi həftələrlə, aylarla, hətta illərlə çəkirdi. Buna görə də həm hücum edən, həm də müdafiə olunan tərəf müxtəlif hərbi üsullardan istifadə edirdi.***

Qalanın yerləşdiyi ərazi onun ən böyük üstünlüyü sayılırdı. Dağ zirvəsində tikilmiş qalalara yalnız dar və dolama yollarla qalxmaq mümkün olurdu. Bu isə hücum edən qoşunun hərəkətini çətinləşdirirdi. Müdafiəçilər yüksək mövqedən düşməni izləyir, onun hərəkətlərini əvvəlcədən görür və lazımi tədbirləri həyata keçirirdilər. Məhz buna görə qədim sərkərdələr qala tikiləcək yerin seçilməsinə xüsusi diqqət yetirirdilər.

Qalaların divarları qalın daşlardan inşa edilirdi. Divarların hündür olması düşmənin onları aşmasını çətinləşdirirdi. Divarların üzərində keşikçilər üçün xüsusi meydançalar, ox atmaq və ətrafı müşahidə etmək üçün dar deşiklər hazırlanırdı. Bu deşiklər vasitəsilə müdafiəçilər özləri təhlükəyə düşmədən düşmənə zərbə endirə bilirdilər.

Bir qalanı almağın ən geniş yayılmış yolu onu mühasirəyə almaq idi. Hücum edən qoşun əvvəlcə qalanın ətrafını tam nəzarətə götürürdü. Məqsəd qalaya ərzaq, su və əlavə hərbi qüvvənin daxil olmasının qarşısını almaq idi. Günlər keçdikcə ərzaq ehtiyatı azalır, müdafiəçilərin vəziyyəti çətinləşirdi. Bəzən qaladakı insanlar aclıq və susuzluq səbəbindən təslim olmaq məcburiyyətində qalırdılar. Lakin kifayət qədər ehtiyat toplayan qalalar uzun müddət müqavimət göstərə bilirdi.

Mühasirə zamanı xüsusi döyüş qurğularından da istifadə olunurdu. Onlardan ən məşhuru mancanaq idi. Bu qurğu böyük daşları, yanan materialları və digər ağır cisimləri uzaq məsafəyə atmaq üçün hazırlanırdı. Atılan iri daşlar qala divarlarını zədələyir, içəridə yanğın yarada və müdafiəçilərin mövqelərinə zərbə vura bilirdi. Mancanağın hazırlanması və işlədilməsi xüsusi bilik tələb edirdi. Həmin dövrün hərbi mühəndisləri bu qurğuları döyüş şəraitinə uyğun şəkildə hazırlayırdılar.

Bəzi hallarda hücum edənlər divarları dağıda bilmədikdə başqa üsula əl atırdılar. Onlar qala divarlarının altından lağımlar qazmağa çalışırdılar. Lağımların məqsədi divarın dayaqlarını zəiflətmək idi. Dayaqlar sıradan çıxarıldıqdan sonra divarın bir hissəsi çökür və qoşun üçün qalaya daxil olmaq imkanı yaranırdı. Müdafiəçilər isə torpaq altında qazıntı səslərini dinləyərək əks tunellər qazır, düşmənin planını pozmağa çalışırdılar. Bu, orta əsr müharibələrinin ən maraqlı və mürəkkəb üsullarından biri hesab olunurdu.

Qalanın müdafiəçiləri də boş dayanmırdılar. Onlar divarların üzərindən oxlar atır, iri daşlar diyirlədir, nizələrdən istifadə edir, bəzi hallarda isə qaynar su və ya qaynar yağ tökərək düşmənin divarlara yaxınlaşmasının qarşısını alırdılar. Qalanın dar giriş qapıları da müdafiəni asanlaşdırırdı. Çoxsaylı qoşun eyni anda qalaya daxil ola bilmədiyi üçün hücum edən tərəf böyük itkilər verirdi.

Azərbaycan ərazisində yerləşən qədim qalalar da bu baxımdan diqqəti cəlb edir. Əlincə qalası əsrlər boyu möhkəm müdafiəsi ilə tanınıb. Dağ zirvəsində yerləşməsi, çətin keçilən yolları və möhkəm istehkamları sayəsində uzun müddət düşmən hücumlarına tab gətirib. Şuşa qalası da təbii qayalıqlar üzərində salındığı üçün müdafiə baxımından əlverişli mövqeyə malik idi. Bu qalalar göstərir ki, qədim Azərbaycan memarları və hərbi mühəndislər müdafiə qurğularının tikintisində böyük təcrübəyə sahib olublar.

Orta əsr sərkərdələri üçün yalnız güclü ordu kifayət etmirdi. Onlar düşmənin zəif tərəflərini öyrənməli, ərazini düzgün qiymətləndirməli və mühasirəni dəqiq planlaşdırmalı idilər. Bəzən qalanı güclə almaq mümkün olmadıqda hiylə və diplomatiyadan istifadə edilirdi. Tarixdə elə hadisələr var ki, qalalar döyüşlə deyil, danışıqlar və ya ağıllı plan nəticəsində ələ keçirilib. Bu da göstərir ki, hərb tarixində qələbə yalnız silah gücü ilə deyil, düzgün düşünülmüş strategiya ilə də qazanılır.

Mühasirə müharibələri hərbi mühəndisliyin inkişafına da təsir göstərib. Daha möhkəm divarlar, müşahidə qüllələri, gizli keçidlər və su anbarları məhz bu dövrdə geniş tətbiq olunmağa başlayıb. Qalaların daxilində uzunmüddətli mühasirəyə davam gətirmək üçün ərzaq anbarları, su quyuları və digər zəruri tikililər inşa edilirdi. Bu hazırlıq müdafiəçilərin aylarla müqavimət göstərməsinə imkan verirdi.

Bu gün qədim qalalar xalqımızın zəngin tarixini və hərb sənətini əks etdirən qiymətli abidələrdir. Onlar yalnız memarlıq nümunəsi deyil, həm də keçmiş döyüşlərin, qəhrəmanlıq salnamələrinin və hərbi düşüncənin canlı şahidləridir. Bu qalalara baxarkən əcdadlarımızın Vətəni qorumaq üçün necə böyük zəhmət çəkdiklərini, nə qədər güclü müdafiə sistemi qurduqlarını görmək mümkündür.

Orta əsr qalalarının tarixi göstərir ki, Vətənin müdafiəsində təkcə cəsarət deyil, uzaqgörənlik, planlı fəaliyyət və hərbi bilik də mühüm əhəmiyyət daşıyır. Məhz bu xüsusiyyətlər Azərbaycan hərb sənətinin əsrlər boyu formalaşmasına və zənginləşməsinə öz töhfəsini verib.

**Hazırladı:**
**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

## XİN: Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın Qarabağ bölgəsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN-in mətbuat katibi Ayxan Hacızadə yerli medianın bu barədə sualını cavablayıb.

Qeyd olunub ki, Mariya Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır.

Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bu səbəbdən, KTMT mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır.

Vurğulanıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn tələblərinə uyğun olaraq bərpa edib və bununla keçmiş münaqişə həll olunub. Bu çərçivədə, Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır.

## "Ohanyan səddi"nin yarılması daha bir mifin sonu oldu

***Azərbaycan hərb tarixinin səhifələrinə nəzər salsaq, uzun illər ərzində keçilməz olduğu iddia edilən möhkəmləndirilmiş istehkam sədlərinin Azərbaycan Ordusu tərəfindən necə darmadağın edilməsini görə bilərik. Müharibələr tarixində elə müdafiə xətləri olub ki, onları yarmaq mümkünsüz hesab edilib. Müxtəlif dövrlərdə dövlətlər öz hərbi mövqelərini işğalçılardan qorumaq üçün böyük maliyyə və insan resursları hesabına nəhəng istehkam sistemləri qurublar.***



Lakin tarix dəfələrlə sübut edib ki, ən möhkəm sədlərin belə taleyini müəyyən edən beton divarlar deyil, onları hədəfə alan ordunun peşəkarlığı, iradəsi və döyüş əzmidir. Uzun illər ərzində işğal altında olmuş Azərbaycan torpaqlarında da Ermənistan geniş mühəndis-istehkam sistemi yaratmışdı. Ərazilərin mürəkkəb relyefindən istifadə edilərək kilometrlərlə cəbhə boyu və dərinliyə uzanan səngərlər qazılmış, beton bunkerlər inşa edilmiş, uzunmüddətli atəş nöqtələri qurulmuş, mina sahələri və müxtəlif mühəndis maneələri yaradılmışdı. Düşmən bu istehkamlara böyük ümid bəsləyir, onları öz təhlükəsizliyinin əsas təminatı hesab edirdi.

Ən çox adı çəkilən "keçilməz səd"lərdən biri də "Ohanyan səddi" idi. Uzun illər ərzində haqqında danışılan, "keçilməz olan" bu mühəndis-istehkam səddi düşmənin əsas güvənc mənbələrindən sayılırdı. Onlar düşünürdülər ki, onilliklər ərzində qurduqları bu istehkamlar istənilən hücumun qarşısını almağa qadirdir. Lakin döyüş meydanında baş verənlər bütün bu iddiaların əsassız olduğunu göstərdi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu düşmənin illərlə qurduğu sədlər sistemini qısa müddətdə yarmağa nail oldu. Müasir kəşfiyyat vasitələri, dəqiq koordinasiya, güclü artilleriya dəstəyi və şəxsi heyətin yüksək hazırlığı və vətənsevərliyi sayəsində düşmənin ən etibarlı hesab etdiyi mövqelər bir-bir sıradan çıxarıldı. Düşmənin beton bunkerləri, möhkəmləndirilmiş atəş nöqtələri və çoxqatlı müqavimət sistemi Azərbaycan əsgərinin qətiyyəti qarşısında davam gətirə bilmədi. Bu, sadəcə hərbi uğur deyildi, bu, müasir Azərbaycan Ordusunun gücünün və peşəkarlığının parlaq nümayişi idi.

Ermənistan ordusunun qurduğu sədlərin yarılması zamanı Azərbaycan hərbçisi yüksək döyüş məharəti nümayiş etdirdi. Vətən müdafiəçilərimiz övladlıq borclarını şərəflə yerinə yetirdilər. Hər bir mövqe uğrunda aparılan döyüşlər Azərbaycan əsgərinin cəsarətini, dözümlülüyünü və qələbə əzmini ortaya qoydu. Bu uğurun əsas səbəblərindən biri də son illər ərzində Azərbaycan Ordusunun keçdiyi inkişaf yolu idi. Ordumuzun müasir silah və texnika ilə təchiz olunması, şəxsi heyətin hazırlığının artırılması, müasir döyüş taktikasının tətbiqi döyüş meydanında öz nəticəsini verdi. Əslində, "Ohanyan səddi"nin yarılması təkcə bir istehkam xəttinin məhv edilməsi deyildi, həm də bu uzun illər formalaşdırılmış mifin yerlə-yeksan olunması idi. İllərlə Ermənistan hərbi-siyasi rəhbərliyi tərəfindən yenilməz və keçilməz kimi təqdim olunan "Ohanyan səddi"nin qısa zamanda yarılması göstərdi ki, yüksək döyüş ruhuna malik peşəkar ordu qarşısında heç bir istehkam tab gətirə bilməz.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə Azərbaycan əsgərinin gücünü, komandirlərimizin peşəkarlığını və xalqımızın birliyini bütün dünyaya nümayiş etdirdi. Döyüş meydanında qazanılan uğurlar bir daha sübut etdi ki, Azərbaycan Ordusu qarşıya qoyulan ən mürəkkəb tapşırıqları belə uğurla yerinə yetirmək iqtidarındadır.

Möhkəmləndirilmiş istehkam sədlərinin, o cümlədən uzun illər keçilməz olduğu iddia edilən "Ohanyan səddi"nin yarılması Azərbaycan hərb tarixində ordumuzun qüdrətini əks etdirən ən parlaq nümunələrdən biridir. Bu uğurun arxasında peşəkarlıq, müasir hərbi düşüncə, sarsılmaz iradə və ən əsası Vətən sevgisi dayanır. Bu gün də Azərbaycan əsgəri torpaqlarımızın keşiyində ayıqsayıq dayanır, əldə edilmiş Zəfərin verdiyi qürur hissi ilə ölkəmizin ərazi bütövlüyünü və suverenliyini etibarlı şəkildə qoruyur.

**Hazırladı:**
**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Əsrlərdən gələn əks-səda: Şirvanşahlar irsi



(Əvvəli 1-ci səhifədə)

Azərbaycanın orta əsrlər tarixində mühüm rol oynamış, siyasi və mədəni inkişafına böyük təsir göstərmiş dövlətlərdən biri də Şirvanşahlar olmuşdur. Bu dövlət Qafqazın cənub-şərqində, Xəzər dənizi sahillərində yerləşən Şirvan bölgəsində formalaşmış və uzun əsrlər boyu müstəqil və yarımmüstəqil şəkildə fəaliyyət göstərmişdir. Şirvanşahlar sülaləsi Azərbaycan tarixində ən uzunömürlü və möhkəm siyasi qurumlardan biri hesab olunur. Onlar təkcə siyasi gücləri ilə deyil, həm də elm, mədəniyyət, memarlıq, incəsənət sahəsində yaratdıqları dəyərlərlə də tanınmışlar.

Şirvanşahlar dövləti həm coğrafi mövqeyi, həm də iqtisadi əhəmiyyəti baxımından strateji əhəmiyyətli məkanda yerləşirdi. Qafqazın,Yaxın Şərqin və Xəzər dənizi sahillərinin kəsişməsində yerləşməsi dövləti ticarət yolları üzərində mühüm mərkəzə çevirmişdi. Bu amil dövlətin iqtisadi, siyasi, və mədəni həyatına birbaşa təsir göstərmiş, Şirvan bölgəsinin zənginləşməsinə və çiçəklənməsinə səbəb olmuşdur. Lakin XIV əsrin sonlarında Şamaxı zəlzələsi və dağıdıcı hücumlar nəticəsində müdafiə baxımından zəifləyirdi. Bakı limanı isə Xəzər ticarətində strateji düyün və təbii istehkam idi. Şirvanşah I Xəlilullah saray kompleksi inşa etdirərək siyasi və iqtisadi mərkəzi bura köçürtdü.

Şirvanşahlar dövlətinin yaranma tarixi VIII əsrin sonları, IX əsrin əvvəllərinə təsadüf edir. Ərəb xilafətinin zəifləməsi və mərkəzi hakimiyyətin bölgələrdə təsirini itirməsi nəticəsində Azərbaycanın müxtəlif bölgələrində müstəqil və yarımmüstəqil dövlətlər formalaşmağa başlamışdı. Belə dövlətlərdən biri də Şirvanşahlar idi. Tarixi mənbələrə əsasən, ilk Şirvanşah I İbrahim 861-ci ildə hakimiyyətə gəlmişdir. O, özünü “Şirvanşah” titulunda elan edərək Şirvan bölgəsində müstəqil siyasi quruluş yaratmışdır. O, siyasi sabitliyi bərpa etmiş, iqtisadiyyatı inkişaf etdirmiş və əhalinin rifahını yaxşılaşdırmağa çalışmışdır. I İbrahim və ondan sonrakı hökmdarlar regionda mərkəzləşmiş dövlət yaratmaq üçün ciddi islahatlar həyata keçirmişlər.

Şirvanşahlar dövlətində hakimiyyət monarxiya prinsipləri əsasında qurulmuşdu. Şah ali hakimiyyət sahibi hesab olunurdu və siyasi, hərbi, məhkəmə və inzibati səlahiyyətlərə malik idi. Hakimiyyət irsi şəkildə ötürülürdü və əsasən sülalə daxilində şahzadələr arasında bölünürdü. Dövlətin inzibati idarəetməsi müxtəlif səviyyəli vəzifəli şəxslər vasitəsilə həyata keçirilirdi. Şirvanşahlar həm daxili işlərə, həm də xarici siyasətə ciddi nəzarət edirdilər. Bölgənin coğrafi əhəmiyyəti və qonşu dövlətlərlə münasibətlərin həssaslığı səbəbindən Şirvanşahlar daim diplomatik əlaqələri gücləndirmiş, bir sıra hallarda Səlcuqlar, Qızıl Orda, Teymurilər və digər güclü dövlətlərlə sülh və müttəfiqlik siyasəti yürütmüşlər.

Şirvanşahlar ordusunun əsasını iqta torpağı hesabına xidmət edən atlı sipahilər təşkil edirdi. Qala və şəhər müdafiəsində nizamlı piyadalar, habelə qatırlı sursat dəstələri fəaliyyət göstərirdi. Qara dənizdən gətirilən oxatanlar və Şəki meşələrində düzəldilən uzun yaylar yenilik idi.

Şirvanşahların iqtisadi inkişafında ərazinin təbii-coğrafi mövqeyi mühüm rol oynamışdır. Şirvan bölgəsi zəngin təbii sərvətlərlə, münbit torpaqlarla və əlverişli iqlim şəraiti ilə fərqlənirdi. Əhali əsasən əkinçilik, maldarlıq, bağçılıq, ipəkçilik və sənətkarlıqla məşğul olurdu. Xəzər dənizi sahilində yerləşməsi dövləti beynəlxalq ticarət yollarının vacib qovşağına çevirmişdi. Şirvanşahlar dövründə Bakı, Şamaxı, Salyan kimi şəhərlər ticarət və sənətkarlıq mərkəzləri kimi inkişaf etmişdir. Bakı şəhəri xüsusilə neft çıxarılması və emalı ilə məşhur idi. Şamaxı isə dövlətin siyasi və mədəni paytaxtı kimi tanınırdı. Ticarət əlaqələri vasitəsilə Şirvanşahlar dövləti İran, Orta Asiya, Rus, Bizans və ərəb ölkələri ilə əlaqələr qurmuşdu. Xüsusilə ipək, xalça, neft, duz, və digər məhsullar ixrac olunur, əvəzində isə qiymətli metallardan, parçalardan, ədviyyatlardan və digər mallardan istifadə edilirdi. XIII əsrdə Moğol istila vergilərinin artması kənd təsərrüfatının geriləməsinə, şəhər əhalisinin azalmasına gətirib çıxardı. Lakin vassallıq müqaviləsi nəticəsində şəhərlər tam dağıdılmadı və ticarət yolları qismən bərpa olundu. XV əsrdə Şərq-Qərb ipək yolunda rəqabət artanda Şirvanşahlar duz və balıq ixracını artıraraq itkiləri kompensasiya etdi. Belə çevik siyasət böhranların təsirini yumşaltdı.

Şirvanşahlar dövlətinin ən mühüm xüsusiyyətlərindən biri onun zəngin mədəni və memarlıq irsidir. Xüsusilə XII-XV əsrlərdə dövlətin siyasi sabitliyi və iqtisadi rifahı mədəniyyətin çiçəklənməsinə səbəb olmuşdur. Ədəbiyyat, memarlıq, incəsənət, elm sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Şirvanşahlar dövrünün memarlıq nümunələri Azərbaycanın mədəni irsinin parlaq səhifəsini təşkil edir. Xüsusilə Bakıda yerləşən Şirvanşahlar Sarayı Kompleksi dünya miqyasında tanınır və UNESCO-nun Ümumdünya İrsi siyahısına daxil edilib. Bu kompleks memarlıq baxımından unikal olmaqla yanaşı, dövrün siyasi və mədəni əzəmətini əks etdirir.

Şirvanşahlar dövründə elm adamları, şairlər və sənətkarlar himayə olunur, ölkədə elmi və ədəbi mühit təşviq edilirdi. Məşhur şairlərdən Xaqani Şirvani, Fələki Şirvani və digər ədiblər bu dövrün yazarlarıdır. Onlar farsca qəzəllərin bədii dilini türk beytləri ilə harmonik birləşdirdilər. Mədhiyyə janrı ilə sərbəst fəlsəfi poeziya inkişaf etdi. Saray kitabxanası nadir əlyazmaları bir araya gətirərək tərcümə məktəbi formalaşdırdı. Bu sintez sonrakı Azərbaycan klassik ədəbiyyatının təməlini qoydu.

Coğrafi mövqeyi və strateji əhəmiyyəti səbəbindən Şirvanşahlar dövlətinin xarici siyasəti daim mürəkkəb və çoxşaxəli olmuşdur. Bir tərəfdən qonşu dövlətlərin hücumlarından qorunmaq üçün müdafiə tədbirləri görmüş, digər tərəfdən isə diplomatik əlaqələri gücləndirməyə çalışmışdır. Müxtəlif dövrlərdə Səlcuq imperiyası, Əyyubilər, Teymurilər, Qızıl Orda və Səfəvilərlə münasibətlər qurmuşdur. Dövlət bir sıra hallarda müstəqilliyini qoruyaraq, bəzən isə daha güclü dövlətlərin təsiri altında fəaliyyət göstərmişdir. Onlar böyük imperiyalarla vassallıq müqavilələri bağlayır, lakin daxili müstəqilliyini qoruyurdular. Hərbi təhdid yüksələndə xərac və hədiyyə diplomatiyasına, sakit dövrlərdə isə sərhəd qalalarını möhkəmləndirməyə üstünlük verirdilər. Gürcü və Səlcuq sarayları ilə qohumluq qurulur, müharibə riskləri azaldılırdı. Bu çeviklik dövlətin uzunömürlülüyünü təmin edən amillərdən birinə çevrilirdi. Xüsusilə Teymurun yürüşləri zamanı Şirvanşahlar dövləti müdrik siyasət yürütmüş, öz müstəqilliyini qismən qoruyaraq daxili sabitliyi təmin etmişdir. Bu, dövlətin diplomatik bacarığının və strateji qərarlarının nəticəsi idi.



XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin güclənməsi və regionda yeni siyasi xəritənin formalaşması nəticəsində Şirvanşahlar dövlətinin müstəqilliyi sona çatmışdır. 1538-ci ildə I Şah İsmayılın yürüşləri nəticəsində Şirvanşahlar hakimiyyəti tamamilə süqut etmiş, dövlət Səfəvilər İmperiyasının tərkibinə daxil edilmişdir. Buna baxmayaraq, Şirvanşahlar sülaləsinin və dövlətinin tarixi əhəmiyyəti danılmazdır. Onlar Azərbaycan dövlətçiliyinin və siyasi mədəniyyətinin formalaşmasında mühüm rol oynamış, uzun illər regionda sabitliyi, iqtisadi və mədəni inkişafı təmin etmişlər.

Şirvanşahlar dövləti Azərbaycan tarixində siyasi, iqtisadi və mədəni baxımdan dərin iz buraxmışdır. Bu dövlətin fəaliyyəti ölkənin müstəqillik və dövlətçilik ənənələrinin inkişafına töhfə vermiş, memarlıq, ədəbiyyat, elm sahələrində böyük nailiyyətlər əldə olunmuşdur. Şirvanşahlar dövrünün irsi bu gün də Azərbaycan xalqının mədəni sərvətləri arasında xüsusi yer tutur və ölkənin tarixi kimliyini formalaşdıran əsas faktorlardan biri hesab olunur.

**Sevinc QULİYEVA**
**“Azərbaycan Ordusu”**

*Hərb tariximizdən*

# Fətəli xan Qubalı - Azərbaycan torpaqlarının birliyi uğrunda mübarizə aparan sərkərdə

XVIII əsr Azərbaycan tarixinin ən mürəkkəb dövrlərindən biri hesab olunur. Səfəvi dövlətinin süqutundan sonra ölkə ərazisində yaranmış xanlıqlar arasında siyasi parçalanma hökm sürür, daxili çəkişmələr xarici qüvvələrin Azərbaycan torpaqlarına müdaxiləsini asanlaşdırırdı. Belə bir dövrdə Quba xanlığının hökmdarı Fətəli xan Qubalı təkcə bacarıqlı dövlət xadimi deyil, həm də uzaqgörən sərkərdə kimi adını tarixə yazdırdı. Onun əsas məqsədi ayrı-ayrı xanlıqları vahid siyasi hakimiyyət altında birləşdirərək güclü Azərbaycan dövləti yaratmaq idi.

1758-ci ildə hakimiyyətə gələn Fətəli xan ilk növbədə Quba xanlığının hərbi qüvvələrinin gücləndirilməsinə xüsusi diqqət yetirdi. O, orduda nizam-intizamı möhkəmləndirdi, süvari dəstələrinin hazırlığını artırdı və döyüş qabiliyyətini yüksəltdi. Sərkərdə hesab edirdi ki, güclü dövlətin dayağı peşəkar və intizamlı ordudur.




Fətəli xan yalnız müdafiə ilə kifayətlənmirdi. O, Azərbaycanın şimal və şimal-şərq bölgələrində yerləşən xanlıqları vahid idarəçilik altında birləşdirmək istiqamətində ardıcıl siyasət həyata keçirirdi. Dərbəndin Quba xanlığına birləşdirilməsi onun ilk böyük uğurlarından biri oldu. Sonrakı illərdə Bakı, Şirvan, Salyan və digər ərazilər də onun siyasi nüfuz dairəsinə daxil edildi. Beləliklə, Quba xanlığı XVIII əsrin ikinci yarısında regionun ən qüdrətli siyasi və hərbi mərkəzlərindən birinə çevrildi.

Fətəli xanın əsas uğurlarından biri də onun sərkərdəlik bacarığı idi. O, döyüş meydanında çevik qərarlar qəbul edir, qoşunların hərəkətini ərazinin xüsusiyyətlərinə uyğun planlaşdırırdı. Dağlıq və düzənlik ərazilərdə müxtəlif taktikalardan istifadə etməsi orduya üstünlük qazandırırdı. Qəfil hücumlar, sürətli yürüşlər və düşmənin təminat yollarının nəzarətə götürülməsi onun tətbiq etdiyi əsas hərbi üsullar sırasında idi.

Sərkərdə yaxşı anlayırdı ki, yalnız silah gücü ilə uzunmüddətli uğur əldə etmək mümkün deyil. Buna görə də o, diplomatiyaya böyük əhəmiyyət verirdi. Müxtəlif xanlıqların rəhbərləri ilə danışıqlar aparır, zərurət yarandıqda ittifaqlar qurur, bəzi hallarda isə siyasi nikahlardan istifadə etməklə münasibətləri möhkəmləndirirdi. Bu siyasət ona hərbi yürüşlər zamanı əlavə üstünlüklər qazandırırdı.

Fətəli xanın fəaliyyəti yalnız Azərbaycan daxilində deyil, regionun böyük dövlətlərinin də diqqət mərkəzində idi. Rusiya imperiyası, Osmanlı dövləti və Qacar İranı Cənubi Qafqaz uğrunda mübarizə aparırdı. Belə mürəkkəb geosiyasi şəraitdə Quba xanlığının müstəqilliyini qorumaq, eyni zamanda digər xanlıqları öz ətrafında birləşdirmək böyük siyasi uzaqgörənlik tələb edirdi. Fətəli xan bu çətin vəzifənin öhdəsindən bacarıqla gəlməyə çalışdı.

Tarixçilər Fətəli xanın fəaliyyətini qiymətləndirərkən onun ən böyük xidmətlərindən birinin Azərbaycan torpaqlarının siyasi birliyi ideyasını həyata keçirməyə cəhd göstərməsi olduğunu qeyd edirlər. O, hərbi gücü və diplomatiyanı uzlaşdıraraq vahid dövlət quruculuğuna doğru mühüm addımlar atdı. Bu baxımdan Fətəli xan yalnız Quba xanlığının hökmdarı deyil, həm də milli dövlətçilik tariximizin görkəmli simalarından biri hesab edilir.

Müasir Azərbaycan Ordusunda Vətənə sədaqət, peşəkarlıq və yüksək döyüş hazırlığı əsas prinsiplərdən sayılır. Bu dəyərlər tariximizin görkəmli sərkərdələrinin fəaliyyətində də öz əksini tapmışdır. Fətəli xanın irsi göstərir ki, güclü ordu, düzgün hərbi strategiya və milli birlik dövlətin təhlükəsizliyinin başlıca təminatıdır. Onun keçdiyi yol bugünkü hərbi qulluqçular üçün də vətənpərvərlik, qətiyyət və məsuliyyət nümunəsi olaraq qalır.

Azərbaycanın hərb tarixində Fətəli xan Qubalının adı təkcə uğurlu sərkərdə kimi deyil, parçalanmış torpaqları vahid məqsəd ətrafında birləşdirməyə çalışan uzaqgörən dövlət xadimi kimi də yaşayır. Onun hərbi-siyasi fəaliyyəti xalqımızın dövlətçilik tarixinin mühüm səhifələrindən birini təşkil edir və gələcək nəsillər üçün əhəmiyyətli tarixi irsdir.

**Hazırladı:**
**Hüsniyyə NƏSİROVA**
**“Azərbaycan Ordusu”**

Fiziki hazırlıq

# Fiziki güc döyüş hazırlığımızı artırır

Hərbi qulluqçuların döyüş qabiliyyətini fiziki hazırlıqsız təsəvvür etmək mümkün deyil. Bu səbəbdən də hərbi hissələrdə müasir tələblərə cavab verən idman şəhərcikləri yaradılıb. İdman həm də sağlamlıqdır. “Sağlam bədəndə sağlam ruh olar”, - deyiblər. İdmanla mütəmadi məşğul olan hərbi qulluqçular da həm sağlamlığını qoruyub saxlayır, həm də Vətənimizi inamlı müdafiə edirlər.

Komando bölmələrindən birinin xidmət yerindəyik. Fiziki hazırlıq onlar üçün xüsusi önəm daşıyır. Keçirilən taktiki təlimlərdə, döyüş hazırlığı məşğələlərində və əməliyyatlar zamanı verilən tapşırıqların vaxtında və çevik yerinə yetirilməsi üçün yüksək fiziki göstəricilər vacib şərtdir. Buna görə də şəxsi heyət idman şəhərciyində müxtəlif idman hərəkətləri yerinə yetirir, qısa və uzun məsafəyə qaçışlar edir, idman alətlərindən istifadə edərək fiziki hazırlıqlarını möhkəmləndirirlər. Ağ-göy boya ilə rənglənmiş idman qurğuları, turniklər, paralel qollar, press masaları, kəndirdə dırmanma və başqa alətlər uzaqdan diqqət çəkir. Burada hərbi qulluqçular həvəslə idman edir, bütün növ hərəkətləri normativlərə uyğun yerinə yetirirlər. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cavidan Səlimov deyir ki, günün nizam qaydalarına uyğun idman saatında da şəxsi heyət hər gün burada fiziki hazırlığını artırmaq məqsədilə idman çalışmalarını yerinə yetirir. “Bu gün də plana uyğun olaraq, turnikdə dartınma, dayaqda aşma, paralel qollarda qollar üzərində qalxıb-enmə, idman alətində press etmək və başqa çalışmalar nəzərdə tutulub. Əvvəlcə isinmə-gərilmə hərəkətlərini etdikdən sonra digər çalışmaları ardıcıl və normativə uyğun icra edirik. Bununla yanaşı kütləvi idman tədbirlərimiz də olur. Belə tədbirlər fiziki hazırlığımızı artırmaqla yanaşı, mənəvi-psixoloji hazırlığımıza da müsbət təsir edir”, - deyir Cavidan.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Əfqan Qasımov, Talıb Məmmədov, Rüfət Səlimov, Nursaid Abdullazadə və digər hərbi qulluqçular da idman hərəkətlərini yüksək səviyyədə yerinə yetirirlər. Onları müşahidə etdikcə hər birinin təcrübəli, intizamlı, yüksək döyüş qabiliyyətinə malik olduğu hiss olunur. Aralarında peşəkar idmanla məşğul olanların da olduğunu öyrəndik. Rüfət Səlimov hərbi xidmətdən əvvəl qaydasız döyüşlə məşğul olub. Rayonlararası və zonalar üzrə keçirilən birinciliklərin dəfələrlə mükafatçısı olub.

Rüfət vurğulayır ki, idman hər insana vacibdir, hərbi qulluqçu üçün isə ikiqat əhəmiyyətlidir. Çünki hərbi xidmətdə bütün fəaliyyətlər idmanla sıx bağlıdır. Eləcə də idmanla məşğul olmaq gənclərimizi pis vərdişlərdən də uzaqlaşdırır. Ordumuzun bütün bölmələrində yaradılan yüksək şərait onların idmana olan həvəsini daha da artırır. Əsgər Nursaid Abdullazadə peşəkar idmançı olmasa da, gündəlik idman çalışmalarını vaxtında və düzgün yerinə yetirir, fiziki hazırlığını daim yüksək saxlamaq üçün səy göstərir. Nursaid deyir ki, şəxsi heyətin bütün fəaliyyətləri diqqətdə saxlanıldığı kimi, fiziki hazırlıq məşğələsinin keçirilməsini də komandir heyəti nəzarətdə saxlayır.

“Biz yaxşı dərk edirik ki, fiziki hazırlıq döyüş qabiliyyətimizi də yüksəldir. Qalib və rəşadətli ordumuza layiqli hərbi qulluqçular olmaq, təlimlərdə yüksək nəticələr əldə etmək üçün fiziki cəhətdən hazırlıqlı olmalıyıq. Hər birimiz bu məqsədlə bütün dərslərimizə həvəslə yanaşır, nümunəvi hərbi qulluqçu olmaq üçün çalışırıq. Çünki seçdiyimiz şərəfli peşəyə ürəkdən bağlıyıq və Vətən müdafiəçisi olmaqdan qürurlanırıq”, - deyir Nursaid.

Həmsöhbət olduğumuz Talıb Məmmədov və digərlərinin də idmana münasibəti eynidir. Kəndirlə dırmanmanı icra edən Talıb bildirir ki, bu hərəkət qol, bilək, ayaq əzələlərini daha da möhkəmləndirir. “Bu mənim ən sevdiyim idman hərəkətidir. İplə dırmanarkən bütün bədən əzələləri məşq edir. Digər idman hərəkətlərini də bacarıqla yerinə yetirə bilirəm, lakin bu hərəkəti daha çevik icra edirəm. Ümumiyyətlə, heyətimizdə fiziki hazırlığı zəif olan yoxdur. Çünki biz komando bölməsiyik və bizim fiziki hazırlığımız da, döyüş hazırlığımız da daim yüksək olmalıdır. Hər an istənilən əməliyyatı qısa vaxtda və uğurla yerinə yetirməyə qadir olmalıyıq”.

İdman şəhərciyindən xoş təəssüratlara ayrılaraq, onlara şərəfli xidmətlərində uğurlar arzulayırıq. Bir daha əmin oluruq ki, ordumuzun istənilən bölməsində günün nizam qayadalarına uyğun bütün məşğələlər yüksək səviyyədə və səmərəli təşkil olunur. Şəxsi heyətin fərdi bacarıqları daim möhkəmləndirilir ki, bu da müdafiə qüdrətimizin daha da artırılmasına xidmət edir.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**





Medallı igidlərimiz

# Vətənə sədaqətini xidməti ilə təsdiqləyən hərbçi

***Azərbaycan Ordusunun şəxsi heyəti Vətənə sədaqəti, peşəkarlığı və məsuliyyətli xidməti ilə seçilirlər. Onların hər biri ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsinə öz töhfəsini verir. Məhz ordumuzun gücünün, qazandığı zəfərlərin əsas amillərindən biri də şəxsi heyətin vətənpərvərliyi, nümunəvi xidməti, fədakarlığı, peşəsinə ürəkdən bağlılığıdır. Belə hərbçilərdən biri də kiçik çavuş Sənan Mütəllimovdur.***

Sənan Mütəllimov 1988-ci ildə Sabirabad rayonunun Çöl Dəllək kəndində anadan olub. O, kiçik yaşlarından Vətənə bağlılıq, vətənpərvərlik ruhunda tərbiyə alıb. Hərb sənətinə olan marağı onun gələcək həyat yolunun müəyyənləşməsində mühüm rol oynayıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı səfərbərlik üzrə hərbi xidmətə çağırılan Sənan Mütəllimov cəbhəyə yollanaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak edib. O, Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində gedən döyüşlərdə üzərinə düşən tapşırıqları yüksək məsuliyyət və peşəkarlıqla yerinə yetirib. Döyüşlər zamanı rabitəçi kimi xidmət göstərərək döyüşən bölmələr arasında, bölmələrlə komandanlıq arasında fasiləsiz rabitənin təmin olunması üçün əzmkarlıqla çalışıb. Qeyd edək ki, rabitənin fasiləsiz təmin edilməsi, etibarlı şəkildə qorunması bölmələrin döyüş qabiliyyətinin və əməliyyatların koordinasiyasının təmin edilməsində xüsusi əhəmiyyət daşıyır. Sənan Mütəllimov bu məsuliyyətli vəzifəni şərəflə, bacarıqla yerinə yetirərək komandanlığın etimadını qazanıb.

Döyüş meydanında elə məqamlar olub ki, rabitəçi vəzifəsi ilə yanaşı, müxtəlif atıcı silahlardan da istifadə etməli olub. Xüsusilə də qumbaraatan silahının istifadə qaydalarını yaxşı mənimsəyib. Həmçinin döyüşlər zamanı düşmənin möhkəmləndirilmiş mövqelərinə qarşı keçirilən əməliyyatlarda dəqiq atəş zərbələri də endirib.

Sənan Mütəllimovun döyüş yolu Vətən müharibəsinin şərəfli səhifələrinin ayrılmaz hissəsidir. O, silahdaşları ilə birlikdə uzun illər işğal altında olan torpaqlarımızın azadlığı uğrunda aparılan döyüşlərdə iştirak edərək Azərbaycan əsgərinin mətinliyini, iradəsini və Vətən sevgisini öz xidməti ilə nümayiş etdirib. Vətən qarşısındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib. Bu mükafatlar onun döyüş meydanında göstərdiyi igidliyə və fədakarlığa dövlət səviyyəsində verilən dəyərin ifadəsidir.



Müharibədən sonra könüllü olaraq hərbi xidmətini davam etdirən Sənan Mütəllimov qazandığı döyüş təcrübəsini gündəlik xidmətdə uğurla tətbiq edir. Gənc hərbi qulluqçuların hazırlanmasında, hərbi intizamın möhkəmləndirilməsində və şəxsi heyətin döyüş hazırlığının artırılmasında fəal iştirak edir. O, həm uğurlu döyüş yolu keçmiş, həm də nümunəvi xidməti və yüksək mənəvi keyfiyyətləri ilə seçilən hərbi qulluqçulardandır.

Bu gün ordumuzda Sənan Mütəllimov və onun kimi minlərlə gəncin inamlı xidməti xalqımızda tarixi köklərindən gələn vətənpərvərlik ənənələrinin davam etdirilməsinin bariz nümunəsidir. Belə oğulların keçdiyi şərəfli xidmət və döyüş yolu gənc nəsildə Vətənə sevgi, dövlətə sədaqət və hərbi peşəyə rəğbət hissinin formalaşmasında mühüm rol oynayır. Təcrübəli, bacarıqlı və fədakar hərbçilərimizin nümunəvi xidməti Azərbaycan Ordusunun müdafiə qüdrətinin daha da möhkəmlənməsinə xidmət edir.

Sənan Mütəllimovun şərəflə daşıdığı hərbi mundiri yalnız görünüşü ilə deyil, həm də Vətənə sonsuz sədaqətin, dövlətə və xalqa xidmətin rəmzidir. O, Azərbaycan əsgərinin mərdliyini, qələbə əzmini və yüksək mənəvi keyfiyyətlərini öz xidməti ilə təsdiq edən hərbçilərdəndir.

Xalqa, dövlətə şərəflə xidmət etmək, qəhrəmanlıq göstərmək təkcə döyüş meydanında vuruşmaqla ölçülmür. Vətənə sədaqət, hərbi anda sadiqlik, xalqın təhlükəsizliyi naminə gecə-gündüz Vətənimizin keşiyində ayıqsayıq dayanmaq da əsl igidliyin göstəricisidir. Sənan Mütəllimovun xidmət yolu da bu dəyərlərin bariz nümunəsidir. Belə igid Vətən övladlarının xidmət yolu gənc nəsildə Azərbaycan Ordusunun qüdrətinə inamın daha da artmasını göstərir. Bu gün Azərbaycan əsgəri Vətənə sədaqəti, peşəkarlığı və sarsılmaz iradəsi ilə seçilib və bundan sonra da bu şərəfli ənənəni davam etdirəcək.

**Kifayət ƏLİYEVA**
**“Azərbaycan Ordusu”**

## Könlüm şeir istəyir

# Söz çələngimizin qiymətli misraları

**_Şeir insanın duyğularını, düşüncələrini və Vətənə olan sevgisini ən təsirli şəkildə ifadə edən sənət nümunələrindəndir. Bu dəfə “Könlüm şeir istəyir” rubrikasında Azərbaycanın xalq şairləri Nəriman Həsənzadə və Zəlimxan Yaqubun, eləcə də poeziyamızın nümayəndələri Baba Vəziroğlu, Kamal Hüseynzadə və Həsən Kürün şeirləri yer alır. Hər bir əsər müxtəlif mövzuları əhatə etsə də, onları birləşdirən əsas cəhət Vətənə, insana və mənəvi dəyərlərə sədaqət hissidir. Misralarda Vətən sevgisi, fədakarlıq və həyatın əbədi həqiqətləri poetik dillə ifadə olunur. Poeziyanın gücü insan qəlbinə toxunaraq gizli qalan duyğuları oyandırır. Bu şeirlər oxucunu düşündürür, duyğulandırır və mənəvi zənginliyə səsləyir. Vətənə sevgi və mənəvi iradə hər bir hərbi qulluqçunun ən dəyərli xüsusiyyətlərindəndir. Bu misralar da həmin dəyərləri bədii sözün qüdrəti ilə oxucuya çatdırır. Ümid edirik ki, təqdim olunan şeirlər hər bir oxucunun könlündə xoş ovqat yaradacaq, onu düşündürəcək və milli ruhu daha da gücləndirəcəkdir._**

**“Azərbaycan Ordusu”**

## Nəriman Həsənzadə

### Qurban olaram

Yenə də gözlərim gözündə qalıb
Gördüyüm mənaya qurban olaram.
Əgər həqiqətsən, mən həqiqətə
Röyasan, röyaya qurban olaram.

Söhbətin şirindi, gülüşün təzə,
Saldın ürəyimi eşqə, həvəsə.
Sən ayaq basdığın o yola, izə,
Çəmənə, səhraya qurban olaram.

Çatsın hər muradın başa dünyada
Bir arzun dəyməsin daşa dünyada.
Bu dünya gözəldi, yaşa dünyada
Sən olan dünyaya qurban olaram.

## Zəlimxan Yaqub

### Sən yorulmadın

Yollara baxmaqdan gözüm yoruldu,
Səni çağırmaqdan sözüm yoruldu,
İradə yoruldu, dözüm yoruldu,
Ey mənim inadım, sən yorulmadın.
Yerlərə, göylərə saldın səs-səda,
Uca zirvələri gətirdin yada.
Üfüqlər nə qədər geniş olsa da,
Ey qolum, qanadım, sən yorulmadın.
Bütün ömrün boyu yardın, yaratdın,
Arzuya yetişdin, mətləbə çatdın.
Ruhuma uyuşdun, könlümə yatdın,
Zəhmətim, ustadım, sən yorulmadın.
Düşmən bostanıma xeyli daş atdı,
Gah möhkəm tutdurdu, gah yavaş atdı.
Təmizlik, halallıq səni yaşatdı,
Məğrur istedadım, sən yorulmadın.

### Axşamüstü

Göylərdə kövrələn buludlar deyil,
Beynimin içinə dolan tüstüdü.
Bilirəm qarşıdan qaranlıq gəlir,
Yaman darıxıram, axşamüstüdü.
Qəlbin həm sevinci, həm də yası var,
Hər günün öz hökmü, öz dünyası var.
Ömrün səhəri var, günortası var,
Yaman darıxıram, axşamüstüdü.
Dünyanın üzünə gələndən bəri,
Həmişə sevmişəm nurlu səhəri.
Kimə xeyir verib axşamın şəri,
Yaman darıxıram, axşamüstüdü.
Alınmaz qalanı kim tikib görən,
Nə deyir hördürən, nə deyir hörən.
Geriyə qayıtmır qapıdan girən,
Yaman darıxıram, axşamüstüdü.
Səhər bu dünyanın hər şeyi təzə,
Günorta gözəllik gətirir gözə.
Axşam qaranlığı heç baxmır sözə,
Yaman darıxıram, axşamüstüdü.

## Baba Vəziroğlu

### Sevgi ayrılıqdan güclüdü, vallah

Mən uzaq səfərə yol alan gəmi,
Səni tərk edirəm bir liman kimi.
Qorxma ayrılıqdan burax əlimi,
Sevgi ayrılıqdan güclüdü, vallah.

Dünyada nə qədər sevgi var, bil ki,
Sən mənim dilimin əzəli, ilki.
Qorxma ayrılıqdan, ölüm deyil ki
Sevgi ayrılıqdan güclüdü, vallah.

Sən hələ bilmirsən ayrılıq nədir
Hər səfər könlünü sıxır, inlədir.
Ayrılan cisimdir, ruh səninlədir
Sevgi ayrılıqdan güclüdü, vallah.

Sənsiz həyat deyil ömür gün mənə,
Tək sənsən ürəkdən yanan sən mənə.
Qorxma ayrılıqdan inan sən mənə,
Sevgi ayrılıqdan güclüdü, vallah.

Qorxu, intizar var ağlar gözündə
Neçə yalvarış var bircə sözündə.
Bir gün biləcəysən elə özün də
Sevgi ayrılıqdan güclüdü, vallah.

Nə fərqi yaxınam ya da uzağam
Hələ ki səninəm nə qədər sağam.
Ölsəm, o dünyadan qayıdacağam
Sevgi ayrılıqdan güclüdü, vallah.

Göz yaşı əbəsdi, çıxıb gedəcəm
Könlümü odlara yaxıb gedəcəm.
Mən sənə, hamıya sübut edəcəm
Sevgi ayrılıqdan güclüdü, vallah.

## Kamal Hüseynzadə

### Vətənəm

(Şəhidlərimizə həsr olunur)

Hökm edir ərşə bir ulduzlu hilal,
seyrinə dal,
Parlasın gözlərin ulduz kimi, ey qaşı hilal.
Külə döndüm sənə olsun deyə qismət
bu qürur,
Cismimi büsbütün atəş bürüdü,
ruhumu nur.
Kükrədim fırtına tək gah oyana,
gah buyana,
Qoymadım doğma səmalarda
ögey yel dolana.
Can quşum tərk eliyincə
bədənin dar qəfəsin,
Elədim aləmi dar düşmənə,
kəsdim nəfəsin.
Tutduğum zirvədən ötrüdü həyatə gəlişim,
Kəsə getdim yolumu, qalmadı dünyadə işim.
Mən bəqa aşiqiyəm, yoxdu fənalıqla aram,
Almışam aləmi ağuşuma, hər yerdə varam.
Ocağın sönsə odam mən,
evin od tutsa suyam,
Səndən ayrılmamışam,
hər nə görürsənsə oyam.
Ruhumun qüdrəti ruhundadı, dik tut başını,
Ağlama, saxla zəfər müjdəsinə göz yaşını.
Qoyma nəm çəkməyə kipriklərini,
qeydinə qal,
Qalxıb innən belə xəzri saçına çəksə sığal,
Əyilib öpsə üzündən gilavar, bil ki, mənəm,
Bir zaman həmvətən idim sənə,
indi Vətənəm!

## Həsən Kür

### Cəbhədən məktub

Sən mənə şərfini göndərmə daha,
Səngər beşik kimi istidir, qızım.
Vətən sənin kimi suyuşirindi,
Hamını özünə istədir, qızım.

Görsən darıxırsan, şəkillərə bax,
Körpə əllərini boynuma dola.
Boylan pəncərədən getdiyim yola,
Bu məni görməyə bəs edir, qızım.

Mən burda yaxşıyam, sən də yaxşı ol,
Bilim ki, sənin də günün şən keçir.
İnan, göndərdiyin bütün dualar
Gəlir başımızın üstündən keçir,
Allah başımızın üstədir, qızım.

Allah üstümüzdən çəkməsə əlin,
Birgə yandırarıq zəfər məşəlin.
Hamının qorxduğu zalım əcəlin
Boyu boyumuzdan bəstədir, qızım.

Əgər günün biri, geri dönməsəm,
Eşidə bilməsən atanın səsin,
Qorxma, ürəyinə qorxu düşməsin,
Atan ölməyibdi, xəstədi, qızım.

# İdman



### Bakıda güləş üzrə U-17 dünya çempionatının açılış mərasimi keçirilib

İyulun 27-də Bakıda güləş üzrə U-17 dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Milli Gimnastika Arenasında təşkil olunan tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib.

Açılış mərasimində Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov, Gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Açılış mərasimində dövlətimizin başçısının idmana göstərdiyi yüksək diqqət və qayğıdan, apardığı uğurlu idman siyasətindən danışılıb, ölkəmizin mühüm beynəlxalq idman yarışlarına və tədbirlərinə ev sahibliyi etməsinin artıq uğurlu ənənəyə çevrildiyi qeyd olunub.

Tədbir daha sonra bədii hissə ilə davam edib.

Milli Gimnastika Arenasında təşkil edilən dünya çempionatına avqustun 2-də yekun vurulacaq. Yarışda 60-dan çox ölkədən 700-ə yaxın güləşçi medallar uğrunda mübarizə aparır.

### Azərbaycan idmançısı Dünya Kubokunun qalibi olub



Azərbaycanın paragüllə atıcılığı üzrə milli komandasının üzvü Kamran Zeynalov Serbiyanın Novi Sad şəhərində keçirilən Dünya Kubokunda qızıl medal qazanıb.

Dünya və Avropa çempionu olan idmançı 50 metr məsafəyə tapançadan qarışıq atəş (P4) yarışının finalında 222 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

Turnirdə Azərbaycanı Kamran Zeynalovla yanaşı, Rafiq Əliyev və Aybəniz Babayeva da təmsil edirlər.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### Böyük Britaniya “Stone Cloak” sisteminin texnologiyasını Ukraynaya verəcək

Böyük Britaniya "Stone Cloak" radioelektron müharibə sisteminin əsasını təşkil edən əqli mülkiyyət hüquqlarını Ukraynaya təhvil verəcək.

Bu barədə Böyük Britaniya Baş nazirinin ofisi məlumat yayıb.

Bildirilib ki, qərar Ukrayna Prezidenti Volodimir Zelenskinin iyulun 27-də Böyük Britaniyaya səfəri zamanı Britaniya hərbi dəniz bazasında elan olunacaq.

Məlumata görə, texnologiyanın ötürülməsi "Stone Cloak" sisteminin Ukraynada sənaye miqyasında istehsalına imkan yaradacaq. Planşet ölçüsündə olan elektron müharibə cihazı quraşdırıldığı pilotsuz uçuş aparatlarının aşkarlanmasının qarşısını almaq üçün nəzərdə tutulub. Böyük Britaniya Müdafiə Nazirliyi indiyədək bu sistemdən minlərlə ədədini Ukrayna Silahlı Qüvvələrinə təhvil verib.

### Pentaqon: İranla münaqişədə 624 hərbçi yaralanıb, 18 nəfər həlak olub



İranla münaqişə zamanı yaralanan ABŞ hərbçilərinin sayı 624 nəfərə çatıb.

Bu barədə Pentaqonun yenilənmiş məlumatında bildirilir.

Məlumata görə, yaralıların 461-i ABŞ Ordusunun hərbçiləridir. Pentaqonun açıqlamasına əsasən, fevralın 28-də başlayan “Epik Qəzəb” əməliyyatı zamanı 417 hərbçi yaralanıb, 14 nəfər həlak olub. İyulun 7-də başlanan digər əməliyyatlar çərçivəsində isə 207 hərbçi yaralanıb, 4 nəfər həyatını itirib.

Beləliklə, hər iki əməliyyat üzrə ümumilikdə 624 hərbçi yaralanıb, 18 nəfər həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

Cəfərov Nadir Allahverən oğluna verilmiş MV № 120870 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | leytenant Tamilla HÜSEYNLİ | Lisenziya № 361 Sifariş № 681 Nüsxə 3653 |